www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9-10 aprel 2016-cı il Şənbə № 75 (6396) Qiymәti 60 qəpik

Xəbər

**Gənc oğlan və qız dəm qazından boğulub öldülər**

yazısı səh.2-də

Gündəm

## "Şapka Mamed"in adı ətrafında növbəti qalmaqal



Cahangir Hacıyevin süqutundan sonra daha da güclənən Məmməd Musayev barəsində prokurorluqda araşdırma başladılıb; Elman Rüstəmovla yaxın münasibətdə olan bu maliyyə imperatorunun sonu necə olacaq?

yazısı səh.9-da

## Qarabağ mitinqi keçirmək təklif edildi

yazısı səh.3-də

*Elxan Mehdiyev:*

## "Bu mərhələdə həlledici rol Rusiyaya məxsusdur"

yazısı səh.10-da

## Sərxoş sürücü yol polisi avtomobilini vurdu, 1 polis xəsarət aldı

yazısı səh.14-də

*Əhməd Davudoğlu:*

## "Rusiya və Ermənistan Türkiyənin münaqişənin həllində iştirakını istəmir"

yazısı səh.11-də

## Mərhələli, yoxsa paket həll - intensivləşən səfərlər nə vəd edir?

yazısı səh.11-də

*Qabil Hüseynli:*

## "Son əməliyyatlar erməni tərəfinin belini qırdı"

yazısı səh.4-də

## Valideynin 100 manat cərimələnməsini nəzərdə tutan cəza ləğv edilir

yazısı səh.2-də

## Bakıdakı erməni agentlərinin kimliyi araşdırılır

yazısı səh.15-də

## At əti işbazları niyə ifşa edilmir?

yazısı səh.13-də

## Bakıda iki avtobus toqquşdu, ölən və yaralananlar var

yazısı səh.14-də

## 4 günlük müharibənin ardınca işğalçıya tərs sillə

# KREMLDƏN ÖZ VASSALINI QƏZƏBLƏNDİRƏCƏK QƏRAR - "AZƏRBAYCANA YENƏ SİLAH SATACAĞIQ..."

Roqozin Bakıdan Ermənistanı pərt edəcək açıqlama verdi; Rusiya öz baş nazirini də prosesə qoşur; Medvedyev İrəvanda "Qarabağa hücum planı"nı açıb? - iddia...



yazısı səh.5-də

## Bakıdakı keçmiş müdiri Serj Sərkisyanı ifşa etdi - şok və öldürücü faktlar!

Sabiq deputat Maksim Musayev keçmiş işçisi Serjikin acınacaqlı həyat tərzindən, yarıtmaz fəaliyyətindən və ermənilər üçün bəla olmasından yazdı: "Yadından çıxmayıbsa, millətimin ünvanına xoş sözlər deməklə qürur duyur və azərbaycanlıların sağlığına saatlarla tost deyirdin"

yazısı səh.7-də



*Professor İlham Rəhimov:*

## "İstərdik fürsət ikən ordumuz Xankəndini götürsün"

yazısı səh.4-də



## Əli Kərimli ya həbs olunsun, ya da ölkədən qovulsun - səbəb

yazısı səh.6-da



*Pərviz Həşimli:*

## "Eldar Mahmudov dövlət çevrilişi şousu düzəldib rəqiblərini sıradan çıxarmaq istəyirdi"

yazısı səh. 8 və 9-da



## İlham Əliyev: “Ümid edirəm ki, Ermənistan həmsədrlərin çağırışlarını eşidəcək”

**Azərbaycan prezidenti İlham Əliyev Minsk Qrupunun status-kvonu dəyişdirilməsinə dair çağırışlarının Ermənistan tərəfindən eşidiləcəyinə və bundan sonra regionda sülhün bərqərar olacağına ümid etdiyini bildirib.**

Virtualaz.org bildirir ki, bu barədə RİA Novosti məlumat yayıb.

“Ümid edirik ki, Minsk Qrupunun status-kvonun dəyişdirilməsinə dair çağırışları Ermənistan tərəfindən eşidiləcək. Azərbaycan ərazisinin işğalına dair status-kvonun dəyişdirilməsi - münaqişənin tammiqyaslı həlli üçün əsas şərtdir. Bu, baş verən kimi regionda sülh, sakitlik, əməkdaşlıq bərpa olacaq. Bu, hamının xeyrinə olacaq”, - İlham Əliyev Rusiya baş naziri Dmitri Medvedyev ilə danışıqların yekununda bildirib.

## Qulu Məhərrəmliyə qarşı qaldırılan iş məhkəmə baxışına verildi

**Yasamal Rayon Məhkəməsində AzTV sədri Arif Alışanovun professor, əməkdar jurnalist Qulu Məhərrəmliyə qarşı xüsusi ittiham qaydasında verdiyi şikayət üzrə məhkəmənin hazırlıq iclası davam etdirilib.**

Virtualaz.org saytının məhkəmədə iştirak edən müxbirinin verdiyi xəbərə görə, prosesə hakim Azər Tağıyev sədrlik edib.

Prosesdə Qulu Məhərrəmlinin vəkili Cavid Rzazadə çıxış edərək bildirib ki, Arif Alışanov məhkəmə iclasına gəlmədiyinə görə iş məhkəmə baxışına qəbul edilə bilməz: “Ötən prosesdə olduğu kimi, bu prosesdə də Arif lışanov iştirak etmir, ona görə də işin məhkəmə baxışına verilməsi doğru deyil”.

Vəkil A.Alışanovun məhkəməyə gəlməsi və işin məhkəmə baxışına verilməməsi ilə bağlı vəsatət qaldırıb.

A.Alışanovun vəkili Zaur Abbasov isə vəsatətin təmin edilməməsini istəyib.

**Prosesdə çıxış edən Q.Məhərrəmli bildirib ki, o, müsahibəsində yalnız tənqidi fikirlər səsləndirib və buna görə məhkəməyə verilib:** “Məhkəməyə və qanunlara hörmət etdiyim üçün prosesə gəlirəm. Bu adam nədən zərər çəkib? Gəlsin izah eləsin. Mən demişəm ki, televiziyaya rəhbərlik edən şəxsin peşə səviyyəsi yüksək deyil, dövlət büdcəsindən ayrılan pullar səmərəli istifadə edilmir. Dövlət bu qədər vəsait ayırır, amma baxın, reytinq nə səviyyədədir. Məndən şikayət edən şəxs özü məhkəməyə gəlməli, özü öz şərəf və ləyaqətini müdafiə etməlidir”.

Daha sonra hakim A.Tağıyev müşavirəyə yollanıb. Müşavirədən sonra hakim məhkəmənin qərarını elan edib. Qərara görə, iş baxışa təyin edilib.

**Prosesin baxış iclası aprelin 15-də keçiriləcək.**

## Gənc oğlan və qız dəm qazından boğulub öldülər

**Şəkidə faciəli hadisə baş verib. APA-nın Şəki-Zaqatala bürosunun məlumatına görə, hadisə bu gün saat 15 radələrində Şəki Şəhər-Rayon Polis Şöbəsinə Şəki şəhəri Mahmud Əliyev keçəsindəki fərdi yaşayış evlərinin birində iki meyit aşkar edilməsi ilə bağlı məlumat daxil olub. Daxil olan məlumat əsasında hadisə yerinə hüquq-mühafizə əməkdaşları və Şəki Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası gəlib.**

Aparılan müayinə zamanı hər iki şəxsin vanna otağında dəm qazından boğularaq ölmələri müəyyən edilib. Araşdırma zamanı dəm qazından boğulub ölən şəxslərin Bakı şəhəri Xətai rayon sakini, 1992-ci il təvəllüdlü Xudafər Abışov və Oğuz rayonu Xaçmaz kənd sakini, 1991-ci il təvəllüdlü Gülşən Tehran qızı Ağayeva olmaları məlum olub.

Həmin şəxslər evi kirayəyə götürüblərmiş.

Faktla bağlı Şəki rayon Prokurorluğunda araşdırma aparılır.

“Qaya Mətbuat Yayımı” MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**“Yeni Müsavat” - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

# 4 ay sonra meyiti tapılan neftçi dəfn edildi

### Mərhum 3 qız atası idi...



**Bir neçə gün əvvəl Xəzər dənizinin Türkmənistan sahillərində tapılan və identifikasiya zamanı Edik Rzaxanova məxsus olduğu müəyyən edilən meyit aprelin 8-də dəfn edilib.**

ANS PRESS-in məlumatına görə, 28 may NQÇ idarəsinin 10 saylı dərin dəniz özülünün çilingəri Edik Rzaxanovun nəşi SOCAR tərəfindən Xaçmazın Xudat şəhərində yaşayan ailəsinə təhvil verilib. Mərhum neftçi Edik Rzaxanov bu gün Xudat şəhər qəbiristanlığında dəfn olunub. Dəfn mərasimində SOCAR-ın nümayəndələri, mərhumun ailə üzvləri və yaxınları, sakinlər, Xaçmaz Rayon İcra Hakimiyyətinin rəsmiləri iştirak ediblər.

**Edikin atası bildirib ki, oğlunun tapılmasına şükr edir:** “Oğlumun cəsədi 4 ay 3 gündən sonra tapıldı. Buna da şükür. Arzu edirəm ki, qalan neftçi qardaşlarımızı da tapıb ailələrinə təhvil versinlər”.

SOCAR-ın 28 may neft-qaz çıxarma idarəsinin rəisi Rövşən Qarayev dekabrın 4-də baş vermiş dəniz faciəsi zamanı platformada 63 işçi olduğunu, qəzadan sonra nəfər 33 nəfər neftçinin xilas edildiyini deyib. Onun sözlərinə görə, indi dənizdə meyidi tapılanların sayı 13 nəfərə çatıb, 17 nəfər isə bugünki günə qədər itkin düşmüş sayılır.

İdarə rəisi dənizdə itkin düşmüş digər neftçilərin meyitlərinin tapılması üçün SOCAR-ın Xəzəryani dövlətlərlə danışıqları davam etdirdiyini deyib.

Dövlət Neft şirkətinin rəsmisi faciə qurbanı olmuş neftçilərin ailələrinin qurum tərəfindən mənəvi və maddi dəstəyin davam etdiriləcəyini bildirib.

4 dekabr 2015-ci il tarixində “Günəşli” yatağında yerləşən 10 saylı Dərin Dəniz Özülündə baş vermiş qəza nəticəsində platformadakı 63 nəfər işçidən 29 yanvar 2016-cı il tarixə olan vəziyyətə əsasən 33 nəfər xilas olub, 11 nəfər həlak olub və 19 nəfər itkin düşüb.

## Valideynin 100 manat cərimələnməsini nəzərdə tutan cəza ləğv edilir

**Azərbaycanda 4 ay əvvəl qüvvəyə minmiş, övladının məktəbə davamiyyətsizliyinə görə valideynin cərimələnməsini nəzərdə tutan cəza ləğv edilir.**

Milli Məclisdən APA-ya verilən məlumata görə, bununla bağlı İnzibati Xətalar Məcəlləsinin 189-cu maddəsinin 2-ci bəndinin ləğv edilməsi barədə qanun layihəsi hazırlanıb.

Layihədə bildirilir ki, “Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi səbəblər istisna olmaqla, dünyəvi icbari ümumi orta təhsil üzrə dərs gününün şagird tərəfindən bir ay ərzində 7 gündən çox buraxılmasına görə valideynlər və ya onları əvəz edən şəxslər yüz manat məbləğində cərimə edilir” məzmunlu bənd ləğv edilir.

Xatırladaq ki, bu bənd 2015-ci ilin dekabrın 2-də həmin vaxt qüvvədə olan İnzibati Xətalar Məcəlləsinə 51.1-1 maddəsi olaraq əlavə edilmişdi. Bu il martın 1-dən qüvvəyə minən yeni İnzibati Xətalar Məcəlləsində 200-dən çox əlavələrin olması səbəbindən bir sıra maddələrin yeri dəyişdiyi üçün müvafiq bənd də 189.2 maddəsi olaraq təsbit olunub.

**Layihə Milli Məclisin aprelin 15-də keçiriləcək iclasında müzakirəyə çıxarılacaq.**




## Sahibkarlar Baş Prokurorluqda qəbulda oldular

**Əmlakları dağıdılmış sahibkarlar Oktay İbrahim oğlu Əliyev, Qasım Məsimov, Oktay Qara oğlu İbrahimov və Vaqif Səfərov Baş Prokurorluqda qəbulda olublar. Sahibkarları Gədəbəy də daxil olmaqla 6 rayonun kuratoru Zakir Həmzəyev qəbul edib. Bu haqda “Yeni Müsavat”a açıqlama verən O.Əliyev deyib ki, onları diqqətlə dinləyiblər:**

“Əvvəllər də hüquq-mühafizə orqanlarına şikayətlərimiz olmuşdu. Bildirmişdik ki, hər birimizin Gədəbəydə tam çıxarışlı obyektlərimiz olub və həmin obyektlər icra başçısı Ramiz Yediyarovun qanunsuz göstərişləri əsasında dağıdılıb, bizlərə heç bir kompensasiya ödənməyib”.

**Sahibkar deyib ki, Z.Həmzəyev üzləşdikləri qanunsuzluqlar haqda məlumatlı olduğunu deyib:** “Zakir Həmzəyev dedi ki, Gədəbəy prokuroru Allahverdi səfərov baş vermiş qanunsuzluqlarla bağlı cinayət işi başlamalı idi. Qeyd etdi ki, yeni təyin olunub və bizim şikayətlərimizdən xəbəri var. 5 aydır ki, bu işləri qaldırıb baxır, maraqlanır. Prokurora da zəng vurub ki, bu nə məsələdir. O da deyib ki, rayon icra başçısı ilə sahibkarlar arasında olan ziddiyyətdir, mən nə edim? Allahverdi Səfərov Zakir Həmzəyevə deyib ki, vətəndaşlara yolunu göstərmişik ki, gedib məhkəməyə şikayət etsinlər, kompensasiya tələb etsinlər. Biz də dedik ki, vətəndaşıq, obyektlərimiz qanunsuz sökülüb, mülkiyyət hüququmuz pozulub. Bununla bağlı cinayət işi başlanmalıdır. Mən kompensasiya tələb edəcəyəm, etməyəcəyəm bu məsələnin başqa tərəfidir, fakt bundan ibarətdir ki, obyektim qanunsuz sökülüb və bu cinayət əməlidir. Bu cinayət əməldirsə, niyə mənim obyektimi qanunsuz sökənlər azadlıqdadır? Bu günə qədər heç biri haqda ölçü götürülmür. Mən pulumu heç istəmirəm. Niyə obyektimi sökənlər cinayət məsuliyyətinə cəlb edilmir? Bir abzasda yazırlar ki, bəli, obyektlər qanunsuz sökülüb, o birində isə yazırlar ki, məhkəməyə müraciət edə bilərsən. Yəni təsdiqləyirlər ki, bu qanunsuzluq, özbaşınalıqdır, amma tədbir görülmür”.

**Sahibkarlar ümid edirlər ki, Baş Prokurorluqdakı görüşdən sonra nəhayət ki, onların şikayətləri üzrə qanunamüvafiq araşdırmalar başlanacaq.**

❑ E.MƏMMƏDƏLİYEV

## Döyüş meydanında qalmış meyitlərin götürülməsi barədə razılığa gəlindi

**Aprel ayının 8-də Bakı vaxtı ilə saat 15.00-dan başlayaraq qoşunların təmas xəttində atəşkəs rejiminin bərpa olunması barədə razılığa gəlinib.**

Bu barədə Müdafiə Nazirliyinin rəsmi saytında məlumat yerləşdirilib.

ATƏT nümayəndələri və Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə 15.00-dan 20.00-dək döyüş meydanında qalmış hər iki tərəfin hərbi qulluqçularının meyitlərinin götürülməsi prosesinin həyata keçirilməsi planlaşdırılıb.

Müdafiə Nazirliyi proseslə bağlı əlavə məlumat veriləcəyini bildirib.

Qəzetimiz çapa gedənə qədər prosesin nəticəsi, detalları barədə məlumat açıqlanmamışdı. Bu haqda son xəbərləri müsavat.com saytından oxuya bilərsiniz.



## Dolların bahalaşması davam edir

**Azərbaycan Mərkəzi Bankı (AMB) aprelin 11-ə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. AMB-dən “APA-Economics”ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi aprelin 11-ə 1,5269 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, dollar bu gün 1,5231 manata bərabər olub.**

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 75 (6396) 9 aprel 2016

# Qarabağ mitinqi keçirmək təklifi

## Müxalifət belə bir mitinqdə iştiraka hazır olduğunu bəyan etdi

**Bir sıra siyasi ekspertlər təklif edir ki, danışıqlarda mövqelərimizi daha da möhkəmlənməsi üçün böyük bir Qarabağ mitinqi təşkil etmək lazımdır. Məsələn, siyasi təhlilçi Şahin Cəfərli bildirib ki, Qarabağ məsələsinin həlli prosesi çox önəmli, bəlkə də həlledici mərhələyə daxil olub. İntensiv qapalı müzakirələr aparılır. Qərar qəbuletmə məqamı yetişdikdə Azərbaycan hakimiyyəti masadakı təklifləri mütləq xalqla bölüşməli və bu taleyüklü məsələyə dair qapalı qapılar ardında təkbaşına qərar verməməlidir.**

**Prosesə Azərbaycan xalqının qoşulması danışıqlarda dövlət başçısının əlini gücləndirə bilər:** "Əgər qapalı müzakirələrdə bizim maraqlarımıza zidd təkliflər gündəmə gəlibsə və Rusiya ilə digər həmsədr ölkələr hakimiyyətə bu təklifləri qəbul etməsi üçün təzyiq göstərirlərsə, onda ən yaxşı yol xalqın dəstəyinə arxalanmaqdır. Hətta düşünürəm ki, hakimiyyət əl altından Bakıda böyük bir Qarabağ mitinqi təşkil edərək müxalifəti də bu işə qoşmalıdır. Əminəm ki, bu mitinqdə heç bir müxalifətçi hakimiyyətə qarşı hər hansı şüar və çağırış səsləndirməz. 1994-cü ilin oktyabrında Surət Hüseynovun növbəti qiyam cəhdi zamanı Heydər Əliyevin çağırışı ilə meydana axışanların içərisində minlərlə cəbhəçi, müsavatçı, AMİP-çi var idi, buna özüm şahidəm. Çünki müxalifətçilər təhlükənin Moskvadan gəldiyinin fərqində idilər. İndi yenə şimaldan təhlükə var. Bu təhlükəyə qarşı Azərbaycan xalqının iradəsinin ortaya qoyulması və dünyaya nümayiş etdirilməsi həyati dərəcədə önəmlidir".

*Bəs müxalifət partiyaları belə bir Qarabağ mitinqinin təşkil olunmasına ehtiyac görürmü? Müxalifət belə bir mitinqdə iştirak edərmi?*

**AMİP-in sədr əvəzi Arzuxan Əlizadə** "Yeni Müsavat"a bildirdi ki, cəbhədə məlum hadisələr başlayan kimi AMİP dərhal Azərbaycan xalqına müraciət etdi. Müraciət Azərbaycan ordusunun apardığı hərbi əməliyyatlara tam dəstək ifadə etməklə yanaşı Milli Ordumuza öz şərəfli missiyasını yerinə yetirməkdə başarılar dilədi və siyasi mənsubiyyətindən asılı olmayaraq hər kəsi Azərbaycan dövlətinin yanında olmağa çağırdı. Bu gün də, bundan sonra da milli və dövlət maraqları naminə, o cümlədən işğal altında olan torpaqlarımızın işğaldan azad olunması üçün hər hansı addımlar atılacaqsa AMİP istənilən an siyasi maraqları arxa plana keçirməklə tam gücümüzlə iştirak etməyə hazırdır: "Xalqın mövqeyinin nümayiş etdirilməsinə gəldikdə isə, xalqımız qələbəyə susayıb və bu günlər ərzində Azərbaycan xalqı qocasından gəncinədək öz mövqeyini kifayət qədər aydın nümayiş etdirdi. Bunu həm düşmənlərimiz, həm onların Moskvadakı havadarları, həm də bütün dünya gördü. Hansı siyasi düşərgədə təmsil olunmasından asılı olmayaraq Azərbaycan xalqının mövqeyi ortadadır. Eyni zamanda hesab edirəm ki, Azərbaycan hakimiyyəti danışıqlar prosesində bu faktordan yararlanmalı və yalnız xalqın iradəsini əks etdirəcək qərarlara imza atmalıdır".


Arzuxan Əlizadə


Razim Əmiraslanlı


Taliyət Əliyev

**Müsavat Partiyasının Divan üzvü Razim Əmiraslanlı** bildirdi ki, Qarabağ bölgəsində və cəbhə xəttində baş verən son proseslər, ordumuzun əldə etdiyi uğurlar, əsgərlərimizin qəhrəmanlığı bir daha xalqımızın vətənə, torpağa olan sevgisini və eyni zamanda Qarabağ uğrunda fədakarlığını ortaya qoydu. Müsavat Partiyası ilk gündən xalqımızla birlikdə ordumuzun və əsgərlərimizin yanında olduğunu bəyan edib. Müsavat bundan sonrakı mərhələdə də ordumuza hər cür dəstək verməyə hazırdır: "Qarabağla və eyni zamanda ümummilli məsələlərdə xalqımızın, vətənimizin, dövlətçiliyimizin maraqları necə tələb edəcəksə, ona uyğun addım atmağa hazırıq".

**ADP sədrinin müavini Taliyət Əliyev** də bildirdi ki, son həftə ərzində cəbhədə Ermənistan silahlı qüvvələrinin atəşkəsi pozması və cəbhəboyu yaşayış məntəqələrimizi atəşə tutmasına cavab olaraq ordumuzun haqlı olaraq həyata keçirdiyi döyüş əməliyyatları nəticəsində əldə olunan uğurlar və bu döyüş əməliyyatlarında ermənilərin böyük itkilər verməsi onu göstərdi ki, ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir. Digər tərəfdən, bu döyüş əməliyyatlarında son damla qanlarına qədər döyüşərək şəhid olan döyüşçülərimizin xalqımız və millətimiz tərəfindən böyük sayğı və hörmətlə qarşılanması, onların son mənzilə yola salma törənlərinin böyük izdihamla, coşqu və döyüş əhval-ruhiyyəsi ilə həyata keçirilməsi bizim millət və dövlət olaraq düşmən üzərində mənəvi-psixoloji üstünlüyümüzün göstəricisidir: "Hər bir şəhidin dəfn töreni böyük bir aksiyaya çevrildi. Yeri gəlmişkən Sərdar Cəlaloğlunun qardaşı oğlu şəhid Rasim Məmmədovun 3 mərasimində iştirak etdim. Təsəvvür edirsiz, Naxçıvanda ibtidai sinif şagirdlərindən tutmuş ən yüksək dövlət rəsmilərinə qədər hamı şəhid ailəsinə başsağlığına gəlir, onların dərdlərinə şərik olur və şəhidin məzarını ziyarət edirlər. Şəhidin məzarı müqəddəs and yerinə və ziyarətgaha çevrilir. Şəhidlərimiz millətimizin döyüş əhval-ruhiyyəsinə böyük stimul verib, minlərlə övladlarımız torpaqlarımızın işğaldan azad edilməsi naminə canından keçməyə hazır olduğunu bildirir. Qabaqcadan heç bir təşkilatçılıq olmadan gənclər və tələbələr ordumuz ilə həmrəy olduqları ilə bağlı aksiyalar və tədbirlər həyata keçirir. İnsanlar arasında dövlətimizə və bayrağımıza olan sevgi müxtəlif formalarda ifadə edilir. Hesab edirəm ki, xalqın və millətin öz torpağına, millətinə və dövlətinə bundan böyük dəstək aksiyası ola bilməz. Amma, gərəkirsə daha böyük aksiya və mitinqlər də təşkil etmək olar. Belə aksiyalar təşkil olunacaqsa siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir təşkilatın və vətəndaşın bu aksiyalarda iştirakı vacibdir və ADP olaraq dövlətimizin suverenliyi və ərazi bütövlüyü uğrunda əlimizdən gələni etməyə hamişə hazırıq".

❑ **Etibar SEYİDAĞA**

# Müharibə siyasi islahatları tormozlaya bilərmi?

## Ekspert siyasi islahatların qarşısındakı əsas maneəni açıqladı

**Son bir ayda əksər siyasi məhbusların azad edilməsi, QHT-lərin hesablarına qoyulan həbsin aradan qaldırılması kimi addımlar hakimiyyətin yumşaldığı, siyasi sahədə də islahatlara start veriləcəyi barədə cəmiyyətdə ümid yaratdı. Ölkə prezidenti İlham Əliyevin martın sonunda Vaşinqtona səfəri, ABŞ-la münasibətlərin normallaşması bu ümidləri bir qədər də artırdı. Bu cür ümidlərin yarandığı bir vaxtda isə Qarabağ cəbhəsində müharibənin başlanması, bu müharibənin yaratdığı vəziyyət yeni situasiya ortaya çıxarıb. Bu situasiya, müharibə amili ölkədə başlandığı müşahidə olunan islahatları tormozlaya bilərmi?**

**Politoloq Natiq Miri** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, islahatlar prosesinin dayanıb-dayanmaması cəbhədə aprelin ilk günlərində baş verən bir neçə günlük müharibə ilə bağlı deyil. İslahatların davam etməsi, getdikcə demokratiya sahəsini də əhatə etməsi müharibənin olub-olmaması ilə deyil, hakimiyyətin özünün daxili ilə bağlıdır: "Hakimiyyətin içərisində başda prezident olmaqla ölkədə müəyyən islahatlar aparılmasına tərəfdar olanlar var. Ancaq islahat prosesinin genişlənməsini istəməyən, prosesi tormozlayan Rusiyayönlü bir şəbəkə də mövcuddur. Bu şəbəkə müharibə faktorundan da ölkədə islahatların genişlənməsinin qarşısını almaq üçün süni şəkildə yararlanmağa çalışa bilər.

Diqqət etdinizsə, insan haqları, demokratiya ilə bağlı islahatlara başlanacağının siqnalları sayılan siyasi məhbusların azad olunması istiqamətində addımlar Azərbaycan prezidentinin ABŞ-da çox yüksək səviyyədə qəbul olunmasına səbəb oldu. İslahatların genişləndirilməsi ilə bağlı hakimiyyətə ciddi dəstəyin olacağı ilə bağlı ciddi mesaj verildi. Bu ərəfədə baxın görün Azərbaycanda paralel olaraq hansı hadisələr baş verdi? Dərhal hava limanında yazıçı Əkrəm Əylisli saxlanıldı və ona cinayət işi açıldı. Ən nəhayət Azərbaycanda tanınmış və bir çox məzlum insanları müdafiə edən bir vəkil-Müzəffər Baxışov Vəkillər Kollegiyasından çıxarıldı. Bu hadisələr bilavasitə insan hüquqları ilə bağlı hadisələr idi. Hakimiyyətin içində olan bəzi qüvvələr bunları etməklə nəyi göstərmək istəyirdi dünyaya? Göstərmək istəyirdi ki, sizin istəyinizə, İlham Əliyevə islahatlar üçün dəstəyinizə rəğmən Azərbaycanda bizim istədiyimiz olacaq, insan hüquqları məsələsi sizin istədiyiniz şəkildə olmayacaq. Ona görə də Azərbaycanda istər iqtisadi, istərsə də siyasi sahədə islahatların sonadək aparılması və yüksək effekt verməsinə inam azdır. Rusiyayönlü şəbəkə buna imkan vermir".



**Ekspertin fikrincə, odur ki, ümid dövlət başçısının ilk növbədə xalqa arxalanmaqla bu problemi birdəfəlik həll etməsinədir:** "Bu problem həll olunsa bütün sahələrdə islahatların istənilən səviyyədə effektdə həyata keçirilməsi asan olacaq. Əks halda tormozlayıcı qüvvələrə islahatların önünün tam açılmasına imkan verməyəcək. Diqqət etdikdə görərik ki, ölkədə islahatlar aparılması istəyi ortada olsa da hələ də ciddi, arzu edilən nəticələrə varmaq mümkün olmur. Səbəb məhz tormozlayıcı qüvvələrin yaratdığı müxtəlif maneələrdir. Onlar müharibə amilindən də öz məqsədləri üçün yararlanmağa çalışa bilərlər".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 75 (6306) 9 aprel 2016

**Professor İlham Rəhimov musavat.com-un ona ünvanlandığı bir suala maraqlı cavab verib:**

# Professor İlham Rəhimov: "İstərdik fürsət ikən ordumuz Xankəndini götürsün" - eksklüziv

## **Hüquqşünas-alim:** "Bizə yəqin oldu ki, erməni hərbi birləşmələri heç də həmişə deyildiyi kimi hərbi gücə malik deyillər, əksinə, yəqin oldu ki, Azərbaycanın güclü ordusu, ordunun isə yüksək ruhu var"

***- Professor, Qarabağdakı qısamüddətli silahlı toqquşmadan sonra, təbii ki, həmin problemin həlli perspektivləri cəmiyyəti maraqlandırır. Artıq politoloqlar, siyasətçilər, həmçinin ictimaiyyətin nümayəndələri kütləvi informasiya vasitələrində mülahizələrini bölüşməyə başlayıblar, bizim ATƏT-dəki daimi nümayəndəmiz Qalib İsrafilov isə "Anadolu" agentliyinə verdiyi müsahibədə izah edib ki, Azərbaycan "5+2 formulu"nu dəstəkləyib və dəstəkləməkdədir.***

***Bu məsələ ilə bağlı Sizin fikrinizi bilmək istərdik...***

- Güman edirəm ki, bu yaxınlarda biz silahlı toqquşma deyil, hər iki tərəfin çoxsaylı itki verdiyi əsl hərbi əməliyyatların şahidi olduq. Əlbəttə, çox istərdik ki, fürsətdən istifadə edərək hər cəhətdən üstünlüyə malik olan ordumuz Xankəndini əldə etsin. Görünür, bizə məlum olmayan səbəblərdən ordunun irəliləyişi və hücum əməliyyatı dayandırıldı. Buna baxmayaraq bizə yəqin oldu ki, erməni hərbi birləşmələri heç də həmişə deyildiyi kimi hərbi gücə malik deyillər. Hətta əksinə, yəqin oldu ki, Azərbaycanın güclü ordusu, ordunun isə yüksək ruhu var. Hadisələr həmçinin bəzi siyasətçilərin, guya ermənilərin arxasında ordu deyil, Rusiyanın durduğu iddialarının səhv olduğunu sübut etdi. Mən həmişə demişəm ki, Rusiya heç vaxt müharibə həddinə çatmış münaqişələrə müdaxilə etməz.

İndi isə "5+2 formulu" barədə fikirlərimi bölüşüm. Bunun kimin ideyası olduğunu bilməsəm də, deyə bilərəm ki, bu bizim üçün qurulmuş bir "tələ"dir. Bu, problemlə ədalət prinsiplərindən irəli gələn həlli deyil, problemlə uzun illərdir məşğul olan beynəlxalq təşkilatların xülyasıdır və insanda belə bir fikir yaranır ki, onlar məsələnin necə həll olunmasına biganədirlər. Onların əsas məqsədi dünya ictimaiyyəti, həmçinin Azərbaycan və Ermənistan qarşısında probleminin həllinə dair "hesabat" verməkdən ibarətdir, vəssalam.



Əsas etibarilə, söhbət problemin mərhələli həllindən gedir, yəni ilk növbədə beş, sonra daha iki rayonun işğaldan azad edilməsi, daha sonra, ucu-bucağı görünməyən bir vaxtda Dağlıq Qarabağda yaşayan əhalinin iradəsinə uyğun olaraq onun statusunun müəyyən olunması. Təsəvvür edək ki, biz beş rayonu azad etmişik və bu səbəbdən oradan didərgin düşmüş soydaşlarımız doğma yurdlarına qayıdıb ermənilərlə qonşuluqda yaşamalıdırlar. Belə olduğu halda həmin rayonlarda sülhməramlı qüvvələr yerləşdirilməlidir. Burada həmin sülhməramlı qüvvələrin kimə mənsub olacaqları sualı meydana gəlir: Rusiya, Amerika Birləşmiş Ştatları, yoxsa BMT qüvvələri? İlk baxışdan sadə görünə bilən bu məsələ əslində olduqca prinsipial siyasi məsələdir.

Ortaya daha bir sual çıxır -yerdə qalan daha iki rayon - Laçın və Kəlbəcər nə vaxt azad olunacaq? Təsəvvür edin ki, bu məsələ də nə vaxtsa həllini tapacaq, lakin ən mühüm problem Dağlıq Qarabağın statusunun müəyyən olunmasının vaxtı və bu statusun Dağlıq Qarabağ əhalisinin iradəsinə uyğun, obyektiv həyata keçirilməsidir. Məhz buna görə, mən yuxarıda qeyd etdim ki, bu bizim üçün qurulan "tələ"dir və buna görə beş rayonun azad edildikdən sonra ikinci mərhələyə keçidi - qalan iki rayonun işğaldan qurtarmaq bizim üçün daha çətin, üçüncü mərhələnin - Dağlıq Qarabağın statusunun müəyyən edilməsinin həyata keçirilməsi, onun vaxtını hətta təxminən ehtimal etmək isə bu məsələni qeyri-mümkün edir.

Bunları nəzərə alaraq hesab edirəm ki, bizim üçün ən qəbul oluna bilən düstur "Dağlıq Qarabağın statusu +5+2 variant"ı, yəni ilkin olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağın statusunun müəyyən olunması, sonra beş, daha sonra isə qalan iki rayonun işğaldan azad edilməsidir. Yeri gəlmişkən, onu da qeyd etmək istəyirəm ki, məhz bu düstur Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəyişməz mövqeyinə uyğundur. Əks halda, biz hazırda "5+2 formulu"na uyğun olaraq sazişə gedib status məsələsini qeyri-müəyyən vaxta saxlasaq, dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar sakitləşib hesab edərlər ki, problem öz həllini tapıb və gələcəkdə bu məsələyə bir daha qayıtmazlar. Həmçinin ehtiyat edirəm ki, bu faktiki vəziyyətlə bizim bugünkü gənc nəslimiz və gələcək nəsillərimiz də barışarlar.

Nəhayət, onu da qeyd etmək istəyirəm ki, bu bizim tarixi seçimimiz, tarixi qərarımız olmalıdır. Buna görə də, ölkəmizin belə mühüm dövründə həmin seçim, həmin qərar xalqımızın ümumi rəyi əsasında qəbul olunmalıdır.

❑ **Musavat.com**

# "Son əməliyyatlar erməni tərəfinin belini qırdı"

## **Qabil Hüseynli:** "Rusiya faktorunu nəzərə almağa məcburuq, ancaq 7 rayonun qaytarılması əsas şərt kimi qoyulmalıdır"

**4 günlük savaşdan sonra Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində illərdir davam edən danışıqların növbəti mərhələsi başlayıb. Rusiyanın xarici işlər naziri və baş nazirinin tələsik Ermənistan və Azərbaycana səfərlərində heç şübhəsiz ki, 4 günlük savaşın fonunda əsas müzakirələrdən biri də Qarabağ probleminin həlli ilə bağlı oldu.**

Əksər ekspertlər son günlərdəki proseslərin ölkəmizin xeyrinə olduğunu düşünürlər. Çünki indiyə qədər düşmən ölkəyə vurulmayan zərbə 4 günlük döyüşlərdə vuruldu. Hazırda intensivləşən danışıqlarla bağlı bir məsələ yenidən gündəmə gəlib: Azərbaycan bu danışıqlarda ölkəmizin müstəqilliyinə təhlükələrin yaranmaması üçün nə etməlidir? Çünki qonşu Rusiya proseslərin havadarı olduğu Ermənistanın ziyanına işlədiyini yaxşı görür. Hər vəchlə bununla barışmaq istəmir. Azərbaycana qarşı hələ də təsir mexanizmlərinin qaldığını düşünsək, şimal qonşumuzun müstəqilliyimizə təhlükə yarada biləcəyi ehtimalının qüvvədə qaldığı sirr deyil.

Xatırladaq ki, iki il öncə Xəzər dənizinin statusu ilə bağlı Həştərxanda keçirilən sammitdə Azərbaycanın qarşısına müəyyən şərtlərin qoyulması barədə xəbər yayılmışdı. Məlumatlarda 7 rayonun qaytarılması müqabilində rəsmi Bakıya Xəzərin ona aid olan hissəsinə nəzarətdən imtina etməsi təklifinin irəli sürüldüyü deyilirdi.



**Politoloq Qabil Hüseynli** Azərbaycanın dəyişmiş reallıqlara uyğun şəkildə hərəkət etməsinin vacibliyini vurğuladı: "Azərbaycan ərazilərimizin müəyyən qismini azad edib, böyük uğur qazanılıb. Hərbi strateji üstünlüyümüz qorunur. Bu da danışıqlar masasında Azərbaycana variantlarını diktə etmək hüququ verir. Diktəni BMT-nin 4 qətnaməsini nəzərdə tutub deyirəm. Bu isə Azərbaycanın ərazi bütövlüyünün birmənalı şəkildə qəbul və təmin edilməsidir. Ruslarda Kazan variantı, Madrid prinsipləri var. Amma bu məsələlər artıq köhnəlmiş sayılmalıdır. 7 rayonun geri qaytarılması və ermənilərin həmin ərazilərdən çıxarılması şərt kimi ortaya qoyulmalıdır. İndiyə qədər ermənilər iddia edirlər ki, münaqişədə iştirak etmirlər, Azərbaycan torpaqlarını işğal edən "Arsax özünümüdafiə" qüvvələridir. Hətta indi də iddia edirlər ki, son döyüşləri aparan "Arsax milli özünümüdafiə" qüvvələridir. Belə olan şəraitdə Azərbaycan sübut və tələb etməlidir ki, ermənilər hərbi qüvvələrini bütün Qarabağ ərazisindən çəkməli, ərazi bütövlüyümüz təmin olunmalıdır. Dağlıq Qarabağ məsələsinə isə, Azərbaycanın ərazi bütövlüyü daxilində baxıla bilər. Bu status əvvəlki mədəni muxtariyyət şəklində ola bilər, daha yüksək muxtariyyət növü də. Ermənilər deyirdilər ki, qan töküb torpaqlar almışıq. Azərbaycan da əsgərləri hesabına cəbhədə təşəbbüsü tam ələ alıb. Bundan sonra Azərbaycan həm ordunun potensialından, həm də cəbhədəki strateji üstünlüklərdən istifadə edərək, istənilən anda hansı köməyin olmasından asılı olmayaraq, erməniləri ərazilərimizdən çıxara bilər. Danışıqlar masasında diplomatiyamız arxasındakı hərbi gücü hiss edərək, daha inamlı və diqqətli olmalıdır".

**Politoloq Rusiyanın Qarabağ məsələsində heç bir beynəlxalq hüquq normalarını nəzərə almadığını qeyd etdi:** "Rusiya son hərəkətləri ilə Qərbin gözünü bir xeyli qorxuda bilib. Elə düşünür ki, istədiyini edə bilər, istədiyi ölkəyə hücum edər. Bu, özündənmüştəbehlikdir. Beynəlxalq aləmin bu məsələyə qarışmaması özbaşınalığın yaranmasına səbəb olur. Ona görə də Rusiya faktorunu nəzərə almağa məcburuq. Çünki Rusiya yaxın qonşudur, eyni zamanda nüvə silahına malik ölkədir, son vaxtlar da hərbi potensialını xeyli düzəldə bilib. Bizdən ötrü Qərbin vuruşacağını gözləmək çox çətindir. Yəqin ki, Rusiya faktorunu nəzərə almaq mümkün olacaq. Amma bu faktor həlledici əhəmiyyətə malik ola bilər. Sona qədər dirənməliyik".

**Q.Hüseynli 4 günlük savaşın Dağlıq Qarabağ problemi ilə bağlı aparılan danışıqlara müsbət töhfələr verdiyi qənaətindədir:** "4 günlük savaş Qarabağ probleminin həlli yollarını uzatmadı, əksində problemin həllinin siyasi yoluna böyük təkan verdi. Ordunun son əməliyyatları erməni tərəfin belini qırdı. Onlar əvvəlki kimi danışıqlar masası arxasında dirəniş göstərə bilməzlər. Siyasi qüvvələr nisbəti, beynəlxalq aləmin problemə yanaşması tərzi və digər məsələlər ölkəmizin xeyrinədir".

❑ **Cavanşir ABBASLI**

## 4 günlük müharibənin ardınca işğalçıya tərs sillə

**4 günlük müharibədən sonra Dağlıq Qarabağ konflikti ətrafında maraqlı situasiya yaranıb. Bu situasiyanın özəlliklərindən biri də Rusiyanın təşəbbüsü öz əlinə almağa çalışmasıdır. Yeni atəşkəs haqda anlaşmanın Moskvada imzalanmasından sonra Bakı və İrəvana, ümumən regiona rus emissarlarının artan səfərindən bunu aydın görmək olar.**



# Kremldən öz vassalını qəzəbləndirəcək qərar - “Azərbaycana yenə silah satacağıq...”

### Roqozin Bakıdan Ermənistanı pərt edəcək açıqlama verdi; Rusiya öz baş nazirini də prosesə qoşur; Medvedyev İrəvanda “Qarabağa hücum planı”nı açıb? - iddia...

Belə ki, Rusiya xarici işlər naziri Sergey Lavrovun ardınca dünən baş nazir Dmitri Medvedyev böyük bir nümayəndə heyəti ilə Azərbaycanda səfərdə olub. Nümayəndə heyətinin tərkibində baş nazirinin müavini, prezident Vladimir Putinin ən yaxın adamlarından sayılan və hərbi-sənaye kompleksini kurasiya edən Dmitri Roqozin də olub.

Gözlənildiyi kimi, dünənki Bakı görüşlərində Qarabağ mövzusu mərkəzi yer tutub. Azərbaycan prezidenti İlham Əliyevlə geniş tərkibli görüşdən sonra D.Medvedyev “Kremlin Azərbaycan və Ermənistan qədər münaqişənin həllində maraqlı olduğunu” söyləyib. “Rusiya-Azərbaycan münasibətləri strateji, qarşılıqlı faydalı xarakter daşıyır” deyən baş nazir Bakı-Moskva münasibətlərinin dostluq və qarşılıqlı hörmətə əsaslandığını xüsusi vurğulayıb.

O, Rusiyanın münaqişəsinin sülh yolu ilə tənzimlənməsini dəstəklədiyini bildirib: “Münaqişənin sülh, danışıqlar yolu ilə həllinin alternativi yoxdur və kompromislər yolu ilə həll edilməlidir. ATƏT-in Minsk Qrupunun üzvü kimi bu istiqamətdə səylərimizi davam etdiririk. İnanırıq ki, bu səylər etimadın bərpa olunmasında və münaqişənin həllində rol oynayacaq. Rusiya Azərbaycan və Ermənistan qədər münaqişənin həllində maraqlıdır”.

***

Dmitri Roqozinin Bakıda verdiyi açıqlama isə Qarabağ mövzusunda Bakıdan səslənən ən önəmli mesaj hesab oluna bilər. Belə ki, baş nazirin müavini jurnalistin “Son hadisələrdən sonra da Rusiya Azərbaycana silah satışını davam etdirəcəkmi” sualına təsdiqi cavab verərək deyib: “Bəli, Azərbaycana silah satışını davam etdirəcəyik”. Onun sözlərinə görə, Moskva Azərbaycana öz strateji tərəfdaşı olaraq, müqavilələrə uyğun surətdə silah tədarükünü davam etdirəcək.

İstər Roqozinin açıqlaması, istərsə də bütövlükdə Rusiyanın Azərbaycanı strateji tərəfdaş ölkə sayaraq əlaqələri dərinləşdirmək əzmi nümayiş etdirməsi sözsüz ki, Moskvanın forpost Ermənistanı, 4 günlük savaşda ciddi itki vermiş erməni toplumunu, məxsusən də prezident Serj Sərkisyanı yüzdə yüz məyus və pərt edəcək, qəzəbləndirəcək, daha da təlaşlandıracaq.

Məsələ ondadır ki, hazırda Ermənistanda növbəti anti-Rusiya isterikası baş qaldırıb. Kremlə qarşı ittihamların qayəsində isə Moskvanın guya 4 günlük müharibədə onları müdafiə etməməsi, “Moskvanın öz müttəfiqinin düşməni Azərbaycana silah satması” kimi ənənəvi iddialar dayanır. Hətta işğalçı ölkənin Avrasiya İqtisadi Birliyi və KTMT-də üzvlüyünü dondurmaq çağırışları səslənməkdədir. Hərgah, son hərbi eskalasiya zamanı aparıcı Rusiya KİV-ləri yenə ermənilərin tərəfini saxlayıb.

***

Ermənistan heç cür qəbul edə bilmir ki, Rusiya müstəqil dövlət kimi kimə silah satmasında sərbəstdir və silahları Ermənistandan fərqli olaraq Azərbaycana nisyə və yaxud havayı vermir, ölkəmiz ondan ötrü sərfəli iqtisadi-ticari tərəfdaşdır, nəhayət, bununla üstəlik, öz kasad büdcəsini doldurur. Yəni imtina variantında Bakı öz hərbi parkını başqa dövlətlər, o cümlədən qardaş Türkiyə və İsrailin hesabına da komplektləşdirə bilər.

Yeri gəlmişkən, ermənilər son eskalasiya zamanı Ermənistanın hərbi uğursuzluğunun bir səbəbini də onunla izah edirlər ki, guya Rusiya Azərbaycana vaxtlı-vaxtında silah və hərbi texnika çatdırdığı halda, Ermənistana ötən il ayırdığı 200 milyon dollarlıq kredit dəyərində silahları hələ də verməməsi, hətta müqaviləni Bakının notasından sonra faktiki, dondurmasıdır. “Bu da hərbi cəhətdən Azərbaycanın daha üstün mövqeyini təmin edib” - iddia olunur.

“Medvedyevin Ermənistana səfəri zamanı faktiki şəkildə Azərbaycan qüvvələrinin aprelin 2-də Qarabağa hücum planı açılmış oldu. Bunu da baş nazir Ovik Abramyan elədi - ixtiyari və ya qeyri-ixtiyari olaraq Medvedyevdən 200 milyon dollarlıq kredit qarşılığında silah göndərilməsini tezləşdirməyi xahiş eləməklə. Bu silahlar hələ də gəlib çıxmayıb” - erməni nəşri “Lragir” yazıb.

***

Əlavə edək ki, Serj Sərkisyan bir neçə gün öncə Almaniya səfəri zamanı kansler Angela Merkellə görüşdə ilk dəfə olaraq Rusiyanın Azərbaycana silah tədarük etməsindən narazılığını sərt şəkildə dilə gətirmişdi. Ancaq belə görünür, Moskvanı vassal Ermənistanın nə düşünməsi az maraqlandırır - əgər ümumiyyətlə, maraqlandırırsa. Roqozinin Bakı bəyanatını bu mənada və 4 günlük müharibənin ardınca işğalçıya tərs sillə də saymaq olar.

❑ **Siyasət şöbəsi**

# Lavrovdan sonra Medvedyev də gəldi - Qarabağla bağlı Rusiyadan nə gözləyək?

### Politoloq: “Həm Rusiya, həm də Qərb Azərbaycanı bu gün həddən artıq ciddi tərəf kimi qəbul edir”

**Rusiya XİN başçısı Sergey Lavrovun ardınca baş nazir Dmitri Medvedyev də Azərbaycana gəldi. Aprelin 8-də Azərbaycan prezidenti İlham Əliyev və Dmitri Medvedyev arasında təkbətək görüş keçirilib. Budəfəki danışıqlarda da prioritet Qarabağ mövzusu olub.**

Prezident İlham Əliyev deyib ki, Ermənistan silahlı qüvvələri son günlər növbəti dəfə təxribata əl atıb: “Azərbaycan cavab addımı atıb. Rusiyaya ekskalasiyanın dayandırılması yönündə səylərinə görə təşəkkür edirəm. Rusiya prezidenti Vladimir Putin mənə və Ermənistan prezidentinə zəng edib”. Dövlət başçısı qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü əsasında həll edilə bilər. APA-nın məlumatına görə, Rusiyanın baş naziri D. Medvedyev isə bildirib ki, iki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır: “Dağlıq Qarabağ münaqişəsinin gərginləşməsi adi situasiya deyil. Rusiya BMT Təhlükəsizlik Şurasının və ATƏT-in Minsk Qrupunun üzvü kimi münaqişənin həllinə çalışır. Danışıqlar davam etdirilməlidir. Rusiya bu məsələnin həlli istiqamətində əlindən gələni əsirgəməyəcək”. Sonra görüş qapalı davam etdirilib.

Rusiya mətbuatının yazdığına görə, baş nazir müzakirələr zamanı konfliktin sülh yolu ilə həll edilməli olduğunu bildirib. O, səfərinin məhz bununla ələqədar olduğunu söyləyib. Medvedyev həmçinin, tərəflərin təcili danışıqlar masasına oturması gərəkliyini xüsusi vurğulayıb. Rusiyanın təklif etdiyi həll variantının detalları açıqlanmasa da, politoloqlar Ermənistan qoşunlarının işğal etdikləri Azərbaycan torpaqlarının bir hissəsindən dərhal çıxmasının müzakirə edildiyini ehtimal edirlər.



Arzu Nağıyev

Qeyd edək ki, S.Lavrov son açıqlamalarının birində “Azərbaycan nə Avrasiya İqtisadi Birliyinə, nə də ki Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvdür. Lakin mən bu vəziyyətin dəyişə biləcəyinə ümid edirəm”-demişdi. Bu mənada hesab olunur ki, Kreml Dağlıq Qarabağın ətraf ərazilərinin azadlığı müqabilində Azərbaycanın Avrasiya Birliyinə daxil olunmasını istəyir. Hesab olunur ki, Rusiya sülhməramlılarını bölgəyə yeridilməsi məsələsi də gündəmə gələ bilər. Ermənistan prezidenti Serj Sərkisyan isə Almaniyanın “Deutsche Welle” qəzetinə müsahibəsində münaqişə bölgəsinə beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsinə qarşı olmadıqlarını deyib.

Fakt budur ki, Qarabağ məsələsi dünya gündəminin əsas mövzusuna çevrilib. Dünən hım də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Moskvada erməni həmkarı Edvard Nalbandyanla görüşüb. Məlumata görə, görüş MDB Xarici İşlər Nazirləri Şurasının Moskvada keçirilən iclası çərçivəsində baş tutub. Rusiyanın çalışmalarının nələr verəcəyinə münasibət isə fərqlidir.

**Politoloq Arzu Nağıyev** bildirdi ki, həm Rusiya, həm də Qərb Azərbaycanı bu gün həddən artıq ciddi tərəf kimi qəbul edir: “Yəni əvvəllər Minsk Qrupu tərəfindən sülhə riayət etmək kimi deklorativ çıxışlardan artıq real məsələlərin həll edilməsi üçün qərarlar qəbul edilməsini Rusiya da başa düşür. Düşünürəm ki, əsas plan doğrudan da beş rayonla bağlıdır. Daha doğrusu, Ağdam, Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlının ilkin mərhələdə azad edilməsi, sonradan Kəlbəcər və Laçının məsələsi gündəmə gələ bilər. Buna bütün beynəlxalq qurumlar tərəfindən, istər BMT-nin qətnamələri, istərsə də razılaşdırılmış Madrid prinsipləri imkan verir”.

**Politoloqa görə, bu razılıq əldə edilərsə, artıq digər məsələlərə keçmək mümkündür:** “Bu status və sülhməramlı qüvvələrlə də bağlı ola bilər. Əgər bu razılıq əldə edilsə, ikinci palan kimi Dağlıq Qarabağın Azərbaycanın ərazi bütövlüyü çərçivəsində statusu və digər məsələlərdən danışmaq olar. Bu gün Azərbaycan ordusu bütün bunların həyata keçirilməsinin əsas qarantından biridir və düşünürəm ki, gələcəkdə də ərazi bütövlüyümüzün bərpası üçün işğalçılara qarşı müvafiq addımlar atacaqlar”.

“Rusiya bizə qonşu dövlətdir və münaqişənin tarixi, gedişi və bu günü baxımdan daha yaxındır. Ermənistana daha çox təsir göstərmək imkanı var. Əgər Ermənistan Rusiyanın təkliflərini birtərəfli qaydada qəbul etsə və bu, münaqişənin həllinə yönəlmiş olsa, əlbəttə Azərbaycan bu təkliflərin reallaşmasında maraqlı olar”. Milli Məclis sədrinin müavini Bahar Muradova Sputnik-in “Rusiyanın son vaxtlar birtərəfli şəkildə Qarabağ münaqişəsinin həllində fəallaşması problemin həllinə hansısa töhfəsini verə bilərmi” sualının cavabında deyib. Vitse-spiker onu da vurğulayıb ki, bu təkliflər digər həmsədrlərlə razılaşdırıldığı təqdirdə effektli ola bilər. “Amma bu təklifləri münaqişənin həllinə cəlb olunmuş digər ölkələr nə dərəcədə adekvat qarşılayacaq, bu barədə konkret fikir söyləmək mümkün deyil. Bu gün regiondakı vəziyyət diktə edir ki, ATƏT-in Minsk Qrupu koordinasiya olunmuş şəkildə fəaliyyət göstərsin. Belə olmayacağı təqdirdə hər hansı yaxşı təklif, cəlbedici görünən variant belə təsirli olmaya bilər”, - deyə B.Muradova bildirib.

Yeri gəlmişkən, Moskva Bakıya silah satışını davam etdirəcəyini də bəyan edib. Rusiya Azərbaycana öz strateji tərəfdaşı olaraq, müqavilələrə uyğun olaraq, silah tədarükünü davam etdirəcək. Bunu Rusiya baş nazirinin müavini Dmitri Roqozin deyib. Yaxın günlərdə isə Rusiyanın müdafiə naziri Sergey Şoyqunun da Azərbaycana səfər edəcəyi xəbəri yayılıb. Hər halda Rusiyanın Azərbaycanla intensiv əlaqələrinin arxasında gizli planların olması sirr deyil.

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 75 (6396) 9 aprel 2016

# Əli Kərimli ya həbs olunsun, ya da ölkədən qovulsun - səbəbi bu yazıda

## Azərbaycanda tək bir çatlaq səs var - Əli Kərimlinin səsi...

**Qarabağ uğrunda illərlə apardığımız və uğrunda minlərlə şəhidimizi fəda etdiyimiz mübarizəmiz olduqca mühüm mərhələyə daxil olub. Aprel ayının ilk günlərində Azərbaycan Silahlı Qüvvələri işğalçı Ermənistan ordusuna sarsıdıcı zərbə vurdu, çox mühüm strateji yüksəkliklərə nəzarəti qaytardı və bu fraqmentdə qarşısına qoyulan vəzifələri uğurla yerinə yetirdi. Ermənı silahlı dəstələri canlı qüvvədə, eləcə də texnikada böyük itkilərə məruz qaldı.**

Ermənistan və onun Dağlıq Qarabağdakı əlaltı rejimi, hətta dinc sakinlər panik vəziyyətə düşdülər. Ermənistan cəmiyyətində, iqtidarında və mediasında xaos başladı.

Ordumuzun uğurlu əməliyyatları xalqımızda böyük ruh yüksəkliyi yaratdı. Azərbaycan cəmiyyəti vahid bir orqanizm kimi, düşmənə qarşı müsəlləh cəbhə təşkil etdi. İqtidar, xalq, media, əksər qeyri-hökumət təşkilatları bir hədəfə kilitləndi. Ölkə prezidentinin, Müdafiə Nazirliyinin çevik və əsaslandırılmış fəaliyyəti sayəsində bəlkə də münaqişə tarixində ilk dəfə idi ki, beynəlxalq ictimaiyyət silahlı toqquşmaların yenidən alovlanması səbəblərinə obyektiv yanaşdı, davamlı xarakter daşıyan erməni təxribatlarına ölkəmizin cavab hüququnu tanıdı və dəstək verdi. Dünyanın nəhəng media quruluşları münaqişə bölgəsindən obyektiv reportajlar yaydılar, erməniləri işğalçı və münaqişə yaradan tərəf kimi təqdim etdilər.

Azərbaycan ordusu ictimai rəydə formalaşmış "məğlub tərəf" sindromunu sındırdı və bütün dünyaya nümayiş etdirdi ki, istənilən anda torpaqları geri almaq əzmindədir.

Daha sonra Azərbaycan beynəlxalq ictimaiyyətin, böyük güclərin israrlı müraciətlərini nəzərə alaraq, hərbi əməliyyatları özünə sərf edən bir nöqtədə dayandırdı və sülh prosesinə sadiqliyini növbəti dəfə nümayiş etdirdi. Əlbəttə, xalqımızın hər bir nümayəndəsi istəyərdi ki, ordumuz dayanmasın, atəşkəs olmasın, ermənilər tam və qəti olaraq darmadağın edilsin. Təbii ki, o gün də gələcək - lakin özümüzü aldatmamaq da lazımdır; o gün bu gün deyil...

Sadəcə, qəhrəman ordumuzun və şəhid olan əsgərlərimizin sayəsində biz o böyük gün üçün olduqca ciddi və tarixi bir addım atdıq. Eyni zamanda, prosesləri gərginliklə izləyən böyük güclərə, beynəlxalq təşkilatlara, dünya ictimaiyyətinə sübut etdik ki, sülh prosesinə sadiqik. Biz torpaqlarımızdan vaz keçmirik - lakin onu necə qaytaracağı seçimini də həm ermənilərə, həm də onun arxasındakı güclərə təqdim etdik.

Hərbi münaqişənin alovlandığı ilk gündən başlayaraq, Azərbaycan müxalifəti də xalqın iradə və istəklərindən kənarda qalmadı; ordunu, iqtidarı dəstəkləyən bəyanatlar verdi. Əslində belə etməsəydilər, bir vətən xaini obrazına düşər, millətin qınağını qazanardılar. İndi təhlil edəndə isə məlum olur ki, bəziləri buna sadəcə, məcbur olublar. **Bu "bəziləri"ndən biri və əslində birincisi AXCP sədri Əli Kərimlidir.**

O, yaxşı tanıdığı, mahiyyətinə bələd olduğu tərəfdarlarına ilk gün "orduya qarşı əks-təbliğat aparmamağı", "xalqı ruhdan salan təftişçi yazılar yazmamağı" tapşırdı *(deməsəydi, özü kimi, biz də əminik ki, onun zombiləri məhz orduya, Azərbaycan prezidentinə qarşı həmin anlarda ermənidən daha betər kampaniya aparacaqdılar)*. Əli Kərimli öz mahiyyətini Azərbaycan Silahlı Qüvvələri ermənilərı atəşkəs rejiminə vadar qoyan kimi büruzə verdi. Elə bil qüruru əzilən ermənilər yox, AXCP sədri idi. "U" dönüşü xarakterində qəfil bir dönüş yapan Əli Kərimlinin ordu və ölkə rəhbərliyinə qarşı xain açıqlamalarını erməni saytları dərhal manşetlərdən verdilər.

*(Bax: http://musavat.com/news/olke/ermeni-mediasi-eli-kerimliye-istinad-etdi-foto_337881.html)*

Bizim üçün hər zaman təəccüblü olub. Bütün fəaliyyəti Azərbaycana, onun köklü və strateji maraqlarına, demokratiyanın ölkəmizdə bərqərar olmasına, iqtidarla müxalifətin normal münasibətlər sisteminin formalaşmasına qarşı olan Əli Kərimliyə, onun xain çevrəsinə və təxribatçı media quruluşlarına bu iqtidar hansı səbəblərdən dözür? Vətən torpaqları üçün əlində silah vuruşan Tofiq Yaqublunu, demokrat-ziyalı İlqar Məmmədovu, görkəmli hüquqşünas İntiqam Əliyevi, jurnalist Rauf Mirqədirovu ciddi səbəb olmadan həbslərə atan iqtidar Əli Kərimlinin xain, erməni dəyirmanına su tökən, onlarla sinxronlaşdırlan fəaliyyətlərinə hansı səbəblərdən səbir göstərir?!

**AXCP sədri Əli Kərimli və onun zombi dəstəsi, yaxın çevrəsi Azərbaycanın strateji vəzifələrini sabotaj edir, son illərin ən uğurlu silahlı əməliyyatını və diplomatik fəaliyyəti eyni ilə ermənilər kimi, onlardan daha yüksək entuziazm və enerji ilə gözdən salır, Azərbaycanın beynəlxalq nüfuzunun ləkələnməsi üçün əlindən gələni edir.**

3 gün öncə də yazdığımız kimi, Əli Kərimlinin siyasi "əməyi" və irəli sürdüyü bütün iddialar ermənilərin Azərbaycana qarşı apardığı informasiya müharibəsinin əsas istiqamətləri ilə tam şəkildə üst-üstə düşür. Erməni sayt və qəzetləri, rəhbərliyi AXCP sədrinin iddia və açıqlamalarından son günlər geniş şəkildə faydalanmaqdadır.

Onun rəhbərlik etdiyi hər şey və hər kəs - AXCP, "Azadlıq" qəzeti, sosial şəbəkələrdə fəaliyyət göstərən zombi dəstəsi Azərbaycana düşmən kəsilib. Onlar bir ansambl şəklində, aydın məsələdir ki, Əli Kərimlinin sifarişlərinə uyğun olaraq, ölkə və millət üçün bu cür taleyüklü məqamlarda düşmən ölkənin informasiya təxribatlarına bəhanə, stimul və dəstək verirlər.

Obyektivlik naminə qeyd etmək lazımdır ki, hazırda Azərbaycan həm cəbhə xəttində, həm də danışıqlar masası arxasında, diplomatik sahədə mühüm üstünlüklər əldə edib. Dövlətimiz son illərdə ilk dəfədir ki, həm də beynəlxalq ictimaiyyətin ciddi dəstəyi ilə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlarda ciddi fərqlilik yaradıb. Belə bir məqamda Kərimli və onun çevrəsi ölkə daxilində vəziyyəti gərginləşdirməyə çalışır, çağırışlar edirlər. Əsas məqsəd də ictimai rəyi yanlış istiqamətə yönəltməkdir; xalqda yaranan vətənpərvərlik ruhunu, xalqın hakimiyyətə verdiyi dəstəyi sarsıtmaq, Azərbaycan cəmiyyətinin iqtidara qarşı olduğuna dair görüntü yaratmaq, bununla da ölkənin əldə etdiyi mühüm uğurları gözdən salmaqdır.

Dünyanın tanınan ekspertləri, bəzi hallarda düşmən ölkənin siyasiləri Azərbaycanın uğurlarından danışdıqları halda, ölkəmizdə tək bir çatlaq səs (Əli Kərimlinin və onun tərəfdarlarının ifasında) eşidilməkdədir.

İlk gün verdiyi bəyanatın məntiqinə uyğun olaraq, o, Azərbaycanın əldə etdiyi üstün mövqeyə dəstək versəydi, əks mövqe tutaraq, ermənilərlə eyni cəbhədə dayanmasaydı, ölkənin siyasi sisteminə son dərəcə böyük töhfə vermiş olacaqdı. Lakin Əli Kərimli xisləti belədir. O, yaxşılıq və faydalılıq üçün yaranmayıb. Kərimli Azərbaycan siyasətinin çömçəsidir, missiyası qarışdırmaqdır.

İndi o, hərbi əməliyyatların davam etdirilməsinə çağırır, öz populist çıxışları ilə müharibənin qızışmasını tələb edir, daxildə vəziyyəti gərginləşdirmək istəyir, cəmiyyətin heç olmasa bir qismini indiki halda ölkənin məsuliyyətini daşıyan prezidentə qarşı qaldırmağa çalışır. Görünür, erməni mediasına və onun təxribat maşınına görüntülü, videolu "faktlar" verməyə həvəslənib.

Son əməliyyatlardan sonra Dağlıq Qarabağ münaqişəsi məntiqi yekununa daha çox yaxınlaşıb; münaqişənin Azərbaycanın istədiyi ədalətli şəkildə, sülh yolu ilə həlli indi ötən həftədəki durumla müqayisədə daha real görünür. Anlaşılan budur ki, Əli Kərimli məhz bu prosesi durdurmaq, ona zərbə vurmaq, Azərbaycanın üstün mövqeyini cəbhə xəttində qanla boğmaq, iqtidarı çıxılmaza salmaq niyyətindədir.

**"İlk gün verdiyi bəyanatın məntiqinə uyğun olaraq, o, Azərbaycanın əldə etdiyi üstün mövqeyə dəstək versəydi, əks mövqe tutaraq, ermənilərlə eyni cəbhədə dayanmasaydı, ölkənin siyasi sisteminə son dərəcə böyük töhfə vermiş olacaqdı"**




Müharibə tələb edən, bununla da minlərlə Azərbaycan gəncinin qanına susayan Kərimli savaş çağırışlarında o zaman səmimi olar ki, ailəsinin əsgərlik yaşındakı üzvlərini xaricdə gizlətməsin, onların da orduya qatılması, savaş bölgəsinə getməsi üçün Müdafiə Nazirliyinə çağırış etsin.

Bir şeyi açıq deyək, bu adamın - Əli Kərimlinin, onun ziyanvər tərəfdarlarının Azərbaycanın köklü milli maraqlarına zidd, ermənilərlə sinxronlaşdırılmış dağıdıcı fəaliyyətinə son qoymaq lazımdır. İllərdir onun həm də müxalif düşərgədə apardığı dağıdıcı, təxribatçı fəaliyyətini görməkdə, yazmaqdayıq.

Müxalifət fəalları, Kərimlinin özü və zombiləri tərəfindən mənəvi və informasiya terroruna məruz qoyulan ziyalılar, jurnalistlər, partiya funksionerləri, məmurlar, gənc liderlər - bir sözlə, bütün sosial təbəqələrin nümayəndələri birləşməli və mahiyyəti, fəaliyyəti xəyanətlərdən ibarət olan Əli Kərimliyə öz yerini göstərməlidirlər.

Azərbaycan iqtidarı isə Rauf Mirqədirovları, Tofiq Yaqublulları , İlqar Məmmədovları, gənc liderləri deyil, məhz onu - dövlətin, millətin maraqlarını heçə sayan, hər kəsi mənəvi terrora məruz qoymağı sevən Əli Kərimli və onun kimi anti-milli ünsürlərini həbs almalı, onların barəsində sərt ölçü götürməli, cəmiyyətdən təcrid etməlidir.

İqtidar onun həbsini bacarmırsa, Ələkrəm Hümbətova sərgilədiyi münasibəti Əli Kərimlidən də əsirgəməməlidir.

**"Müharibə tələb edən, bununla da minlərlə Azərbaycan gəncinin qanına susayan Kərimli savaş çağırışlarında o zaman səmimi olar ki, ailəsinin əsgərlik yaşındakı üzvlərini xaricdə gizlətməsin, onların da orduya qatılması, savaş bölgəsinə getməsi üçün Müdafiə Nazirliyinə çağırış etsin"**

❑ Elşad MƏMMƏDLİ

YENİ MÜSAVAT
N 75 (6396) 9 aprel 2016

## Sabiq deputatdan Ermənistan prezidentinə sensasion ittihamlar




# Bakıdakı keçmiş müdiri Serj Sərkisyanı ifşa etdi - şok və öldürücü faktlar!

## Maksim Musayev keçmiş işçisi Serjikin acınacaqlı həyat tərzindən, yarıtmaz fəaliyyətindən və ermənilər üçün bəla olmasından yazdı: "Yadından çıxmayıbsa, millətimin ünvanına xoş sözlər deməklə qürur duyur və azərbaycanlıların sağlığına saatlarla tost deyirdin"

**YAP-ın qocaman nümayəndələrindən biri, sabiq deputat Maksim Musayev Ermənistan prezidenti Serj Sərkisyanla bağlı sensasion məlumatlar açıqlayıb. "Yeni Müsavat"a açıqlamasında o bildirib ki, nəinki erməni prezidentini, hətta onun dədəsini də yaxşı tanıyır. M.Musayev Sərkisyanın adının rəsmi sənədlərdə əslində "Serjik" olduğunu və bunu təsdiq edən sənədləri də saxladığını vurğuladı.**

Həmsöhbətimizin sözlərinə görə, 80-ci illərin əvvəllərində S.Sərkisyan Dağlıq Qarabağ Muxtar Vilayətinin Komsomol Komitəsinin ikinci katibi təyin olunanda, onun qəbulunda olub: "Bitlis fason saçı da var idi. İçəri girdi, dedim əvvəlcə get, saçını qaydaya sal, sonra gəl, belə komsomol olmaz. O zaman rayon və vilayət üzrə komsomolun birinci və ikinci katibləri təyin olunanda əvvəlcə gəlirdilər Azərbaycan Komsomolunun Mərkəzi Komitəsinə, sonra isə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə və təsdiq olunurdular. Mən də o zaman Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin təşkilat şöbəsində Dağlıq Qarabağ üzrə inspektor işləyirdim. Bu vəzifəni tutan şəxs gərək 3 dildə danışmağı mükəmməl biləydi. Onda mən aspiranturada oxuyurdum, baxıb görüblər ki, mən üç dili mükəmməl bilirəm, bundan sonra məni çağırdılar və vəzifəyə təyin etdilər. Etiraz etdim ki, mən elm ardınca gedəcəyəm, dedilər elə şey yoxdur, kommunistsən, tapşırığı icra etməlisən. Sonra bildim ki, mənimlə bağlı tapşırığı Heydər Əliyev verib. 1970-75-ci illərdə kurator işləmişdim, 1975-dən 80-ci ilədək isə Xalq Nəzarəti Komitəsində Dağlıq Qarabağın qeyri-rəsmi kuratoru olmuşdum. Yəni xeyli təcrübəm var idi".

**M.Musayevin sözlərinə görə, hələ 70-ci illərdən Serjik haqqında məlumatlı imiş:** "O, pioner təşkilatına gətiriləndə cəmi iki ay işləmişdi və özünü doğrultmamışdı. Petrov ixtisasca həkim idi, Serjin haqqında yazmışdı ki, bundan gənclərə rəhbərlik edən olmaz!"

**S.Sərkisyanin keçmiş komsomol həmkarı olan M.Musayev son hadisələrdən sonra Ermənistan prezidentinə açıq məktub yazıb. Məktubda öncə deyilir:**

"Serjik, sən məni yaxşı tanıyırsan. Mən də səni çox dərindən, ən cavan və illərlə aşağı işlərdə olduğun günlərindən tanıyıram. Özümə layiq bilməzdim ki, əlimə qələm alıb sənə müraciət ünvanlayım. Lakin Dağlıq Qarabağda aprelin əvvəllərində baş verənlərdən sonra bunları yazmaq qərarına gəldim. Sən adını dəyişdiyin kimi, əqlini, psixologiyanı da dəyişdin. Bəzi anları xatırlamalı olacağam. Bakıya Stepanakert Şəhər Komsomol Komitəsinin ikinci katibliyinə təsdiq üçün göndərsən də, iş otağımda səni sorğu-sual edəndə soruşdum ki, niyə adın Serjikdir. Sən bunu əsaslandırmağa çalışsan da alınmadı, sonra da adını dəyişdilər. Çox hərəkətlərin o dövrün gənclər təşkilatı rəhbərinə uyğun deyildi, lakin qaydasına qoya bildik, ona görə ki, bizim respublikamızın vətəndaşı idin, yetişdirdik ki, hər iki xalqa ləyaqətlə xidmət göstərəsən. Əfsuslar olsun ki, gözlənilən etimadı doğrultmadın".

**M.Musayev ardınca yazıb**: "Serjik, sən Stepanakert Şəhər Komsomol Komitəsinin ikinci katibliyinə ona görə təsdiq olundun ki, hamının sənə yazığı gəldi. Dedilər ki, fağır, utancaqsan, 8 ilə (1971-1979 illər) birtəhər minnət-xahişlə İrəvan Dövlət Universitetini bitirmisən. Sənə ona görə yazıq kimi baxırdılar ki, atan Azat kombinatda fəhlə, anan Nora toxucu işləyirdi, dolanışığınız ağırlaşmışdı, yalnız qardaşın taksi sürücüsü idi. Səni yazıq gözündə ona görə görürdülər ki, beş il zavod fəhləsi işləmişdin və ona görə də 2 №-li Stepanakert orta məktəbinə pioner baş dəstə rəhbəri vermişdilər. Onu da bildirdilər ki, sən heç iki ay pionerlərə rəhbərlik edə bilmədin. Kim isə dayılıq edib şəhər komsomol komitəsinin idman şöbəsinə işə düzəltdirmişdi. Onu da yadına salmaq istəyirəm ki, Bakıya 1980-ci ilin iyun ayında səni şöbə müdirliyi üçün təsdiqə göndərsələr də, Azərbaycan komsomolu MK-nın ikinci katibi V.Petrov - o, ixtisasca həkim idi, fərqlənmə diplomu ilə tibb institutunu bitirmişdi - qəti etirazını bildirmişdi və bu barədə yazılı fikir söyləmişdi. MK-dakı zona inspektoru M.Qazıyev və şöbə müdiri K.Əliyev bəzi məsələləri nəzərə alaraq, sənin komsomola işə götürülməyinin, yəni gənclər təşkilatında işləməyinin əleyhinə olmuşdular. Görünür, onların əlində ciddi əsaslar var imiş. Barəndə ziddiyyətli fikirləri yadına salsan, görərsən ki, sənin insanlarla işləməkdə yararsız olduğun o vaxtlardan da məlum olubmuş".


Serj Sərkisyan

**Azərbaycanlı sabiq deputat yazıb:** "Yadına salıram ki, səni komsomola, sonra partiya işinə dartıb aparanlardan biri də Dağlıq Qarabağda müharibələr yaradan, qanlar tökdürən, qonşuları düşmən, torpaqları zəbt edən millətçi Henrix Petrosyan idi. O Henrix ki, mühəndis-elektrik olsa da, Gevorkov onu Qarabağ şərab trestinə rəis qoydu ki, pul gəlirlərinin əksəriyyətini "Krunk"a versin və sonra Dağlıq Qarabağ ağır vəziyyətə düşsün. Sən Serjik də Boris-Henrix dövrəsində fırlanır və həftədə bir krunklularla birgə kef edirdiniz. Guya qarabağlılara gün ağlayır, onların dərdinə qalırdınız. Gevorkov özündən sonra vəzifəyə Henrixi ona görə Moskvanın təkidi ilə işə qoydurdu ki, krunklularla birgə əməllərinizi davam etdirəsiniz. Sən qarabağlılar adından pafosla danışsan da, axı, sən Qarabağ ermənisi deyilsən, Qafandan gəlmisən, sizinkilər də Qafana xaricdən köçüblər".

**M.Musayev Serjikin yadına digər bir məsələni də salıb:** "Xoşlamadığım Gevorkov Dağlıq Qarabağda rəhbər olandan sonra onu daşnak-qrunk dəstəsinə qoşmaq istəyəndə belə bir söz demişdi: "... ara, siz Qarabağı erməni qəbiristanlığına çevirəcəksiniz..." Borisin sözləri 3 günlük aprel müharibəsində sübuta yetirildi. Sənin Qarabağda ölən əsgərin dəfn mərasimində iştirak edərkən çıxışını efirdə dinləyəndə Borisin həmin sözlərini bir daha xatırladım. Sən utanmadan mənim millətinə "düşmən" dedin, başa düşmədin və düşməyəcəksən ki, millətlər bir-birinə düşmən olmurlar. Yadından çıxmayıbsa, millətimin ünvanına xoş sözlər deməklə qürur duyur və azərbaycanlıların sağlığına saatlarla tost deyirdin. Həqiqətən də Qarabağı qarabağlı ermənilər üçün qəbiristanlığa çevirmisiniz. O qədər qorxaq idin ki, öldürülən Sasunun dəfni zamanı çıxış edərkən havada hərbi təyyarələr və vertolyotlar uçurdular ki, qəbiristanlıqda sənin gurultudan səsin də eşidilmirdi. Belə əfəl rəhbərliklə sənin günlərin yalnız erməniləri qəbirə qoymaqla keçəcək".

**M.Musayev Sərkisyana xatırladıb ki, o, Ermənistan vətəndaşlarını aparıb Dağlıq Qarabağda qırdırır:** "Ölən əsgərlərin əksəriyyəti qarabağlı deyil, Qarabağda da yaşamırlar. İrəvan, Eçmiadzin, Gümrü, Razdan, Sisian və digər Ermənistan ərazilərində yaşayanları zor ilə aparıb Dağlıq Qarabağda niyə öldürtdürürsən? Basarkeçər rayonunda yaşayan gənc Dağlıq Qarabağda, Zəngilan, Cəbrayıl, Qubadlı və digər torpaqlarımızda niyə əsgər kimi xidmət etməlidir? Bəyəm oralar Ermənistan ərazisidir? Qafqaz regionu ermənilərsizləşdi. Uzağa yox, 50 il qabaqkı ermənilər yaşayan Qafqazı indiki ilə müqayisə edin, onda bəlkə ayıla biləsiniz (çətin ki). Siz erməni xalqına hansı "xidmət"i göstərirsiniz? İştahlanma ki, Qarabağı əlinizdə saxlayacaqsınız. Nəvələrim də Qarabağ uğrunda vuruşa hazırdırlar!"

**Keçmiş deputat ardınca yazıb**: "Serjik, erməni xalqını pis günə onun "naxararları" (ermənicə "rəhbərlər"ə belə deyilir - red.), dindarları və siyasətçiləri qoyublar. Ona görə də, 100 illərlə nə dövlət qura biliblər, nə də ki, yığcam yaşadıqları yerlərdə dinc-sakit yaşaya biliblər. Erməni tarixi haqqında kitablardan oxumuş olarsan. Serjik, vaxt ayır, ermənilər barədə tarixi kitabları oxumasan da, vərəqləyib gözdən keçirəndə görəcəksən ki, dövründən və zamanından asılı olmayaraq, hər hansı ölkədə və ərazidə ermənilər dinc-sakit sülh şəraitində yaşayıblarsa, ora da hərtərəfli inkişafa doğru gedib, dil və əlifbasını unutmamağa çalışıb, milli müvazinətini bacardıqları qədər saxlaya biliblər. Qeyri-sakit və sabit olmayan münasibət yaratmaqla sən öz xalqını bəlalarla üzləşdirir və məhvə doğru aparırsan. Onsuz da sənin sayəndə Ermənistanda erməni əhali sürətlə azalır, sənin rəhbər olduğun dövrdə hər il 25-50 mini köçür, indi bir milyon nəfər də qalmayıb. İşində ən müsbət cəhət odur ki, İrəvan elimizə qayıtmaqda, boş qalmış kənd və şəhərlərimizə sahib durmağa bizim üçün münbit şərait yaradırsan. Biz bunu çoxdan arzulayırdıq ki, davasız-şavasız torpaqlarımıza qayıdaq. Artıq "İrəvana qayıdış" İttifaqının yaradılması vaxtı da yetişib. Əsgər yığa bilmirsən ki, sərhədlərinizi qorusun *(Türkiyə-Ermənistan sərhədlərini də ruslar qoruyur)* və hərbi xidmətə çağırılanlar da qalmayıb. Spyurkdan *(xaricdə yaşayan ermənilərdən)* imdad diləyirsiniz, pul dilənirsiniz".

**M.Musayev Türkiyə ilə bağlı həqiqətləri də düşmən ölkə rəhbərinin yadına salıb:** "Serjik, Ermənistana 4 qonşu dövlətdən ikisi ilə düşmənçilikdəsən. Birini - Türkiyəni tarixi düşməniniz, Azərbaycanı isə yeni düşmən kimi xarici səfərlərindəki çıxışlarında qiymətləndirirsən. Yeri gəlmişkən, deməliyəm ki, sən Ermənistandan daha çox xaricdə olursan, qaçıb oralarda yaşasan, xalqlarımız dinc yaşayarlar. Xaricdə də demokrat cildinə girərək, hətta qonşularına "demokratiya dərsi" keçməyə cəhd göstərirsən. Bilmirsənsə, xatırladaq, ermənilərin düşməni kimi bəyənmədiyin 80 milyonluq Türkiyədə cəmi 39 min erməni vətəndaşı yaşayır (hələ sənin əlindən qaçıb türklərə sığınan 100 minlərlə ermənini saymıram) və Türkiyə parlamentinə 3 erməni deputatı seçiliblər ki, onun biri qadındır, biri də daima tənqid atəşinə tutduğun Rəcəb Tayyib Ərdoğanın partiyasındandır. Əslində əhali sayına görə Türkiyə parlamentində bir nəfər belə erməni millətindən olan deputat kreslo tutmamalıdır, ancaq 3 erməni indi parlament üzvüdür. Hansı ki, 60 il ərzində bir nəfər də belə erməni deputat olmamışdı. Qonşu İran və Gürcüstan parlamentlərinin hər birində 2 erməni deputat var və azsaylı millətin nümayəndəsi kimi həmin ölkə parlamentinin işində iştirak edirlər. Sənə sual edirəm, Serjik, bəs, Ermənistan parlamentində qeyri-erməni millətindən olan bir nəfər deputat niyə yoxdur?! Ola da bilməz, ona görə ki, Ermənistanda sənin kimi millətçi antidemokrat prezident var. Halbuki, vaxtilə Ermənistan parlamentinin 15-20 faizini dinc, birgə yaşayan azərbaycanlılar təşkil edirdilər. Əlavə edim ki, atam bir müddət də Ermənistan parlamentində vitse-spiker olub".

**M.Musayev sonda bildirib:** "Ermənistanı və erməniləri ağır vəziyyətlərlə üzləşdirən Serjik! Sən və sənin kimilərdir ki, 15 il bundan əvvəl özünüz öz deputatlarınızı iclas zamanı güllələyib qırdınız. İrəvanda indi "deputat qəbiristanlığı" yaratmısınız və hər il Ermənistanın parlament üzvləri onların məzarlarına əklil qoysalar da, daxilən sənə və sənin kimilərə nifrət edirlər. Dünya parlamentarizmi tarixində heç bir ölkədə, heç bir millət öz deputatlarına belə divan tutmayıb, deputat imicini tapdalamayıbdır. Bir neçə il əvvəl prezident seçkilərindən sonra mitinqçilərə qarşı törətdiyiniz mart gülləbaranından geniş danışmaq istəmirəm. Öz millətinə qarşı belə zülmkar olan, pis münasibət göstərən ölkə başçısı əlbəttə ki, mənim millətimə qarşı ikiqat qəddar olacaqdır. "Bacardıqların"ı da sən aprel ayında göstərdin".

**M.Musayev əməkdaşımıza bildirdi ki, düşmən ölkədən xəbər tutmaq üçün mütəmadi şəkildə Ermənistan telekanallarını və mətbuatını izləyir. Bununla həm də erməni dilini unutmamağa çalışır:** "Buradakı faktlar İrəvan ermənilərin özlərinə bəlli deyil. Mən görürəm ki, düşmən ölkənin mediası Azərbaycan mətbuatına çox həssasdır. Ona görə də istəyirəm sizin qəzet vasitəsilə dinc ermənilər onlara rəhbərlik edən şəxslə bağlı həqiqətlərdən xəbərdar olsunlar, görsünlər ki, onların prezidenti kimdir".

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 75 (6396) 9 aprel 2016

# Fəlsəfə və Hüquq İnstitutundakı dava haqda şok açıqlama

## Professor Sakit Hüseynov: "Xaliq Əhmədzadə saxtakardı və onun keçmişi qaranlıqdır"


Sakit Hüseynov

**Aprelin 6-da AMEA Fəlsəfə və Hüquq İnstitutunda qalmaqal olduğu haqda məlumat vermişdik. Məlumatda bildirilirdi ki, institutun aparıcı mütəxəssisi Xaliq Əhmədzadə ilə Dinşünaslıq və mədəniyyətin fəlsəfi problemləri şöbəsinin müdiri Sakit Hüseynov arasında insident yaşanıb.**

İnsidentə səbəb isə X.Əhmədzadənin S.Hüseynovdan istefa ərizəsi yazmasını tələb etməsi olub. Bu zaman tərəflərin arasında qarşıdurma yaranıb və nəticədə Sakit Hüseynovun səhhəti pisləşib. İnstitutun binasına təcili tibbi yardım briqadası və polis əməkdaşları gəlib.

Məsələnin təfərrüatını öyrənmək üçün qalmaqalda adı hallanan **fəlsəfə elmləri doktoru, professor Sakit Hüseynov**la əlaqə saxladıq. S.Hüseynov "Yeni Müsavat"a açıqlamasında Xaliq Əhmədzadənin vəzifəli adamların adından istifadə edərək institutda xof yaratdığını bildirdi: "Bəzi hüquqşünaslar araşdırıb görüblər ki, Xaliq Əhmədzadə 2007-2008-ci illərdə Xətai rayon Polis İdarəsində saxlanılıb. Bundan sonra da ona iki dəfə cinayət işi açılıb və axtarışa verilib. Buna görə o, neçə illərdir Bakıda qeydiyyata düşə bilmir. Onun şəxsiyyət vəsiqəsi saxtadır. Bu şəxsə şəxsiyyət vəsiqəsi 21 mart 2015-ci ildə Naxçıvanın polis orqanı tərəfindən verilib. 21 mart bayram günüdür, həmin gün heç bir dövlət idarəsi işləmir. Şəxsiyyət vəsiqəsindəki ikinci saxtakarlıq isə boyu ilə bağlıdır. Bizdə onun diplomunun saxta olması haqda da məlumatlar var. Hüquqşünaslar bu məsələ ilə məşğuldur. Bu şəxsin keçmişi qaranlıqdır. Cinayət məsuliyyətinə dəfələrlə cəlb olunmuş bir adam 2013-cü ildən Fəlsəfə və Hüquq İnstitutuna işə düzəlib və bu günə kimi işləyir. İnstitutun bütün personalı ondan qorxur. Çünki Xaliq Əhmədzadə özünü böyük vəzifəli şəxslərin yaxın adamı kimi qələmə verir və tanıdığımız bütün vəzifəli şəxslərin adından istifadə edir. İnstitutun iki otağını zəbt edib. Halbuki, onun işlədiyi şöbənin elmlər doktorlarının hamısı otaqda yer olmadığına görə koridorda gəzirlər. Bu şəxs Fəlsəfə İnstitutunda elə bir xof yaradıb ki, bu cür xof tarixdə görülməyib. Jurnalistlərdən də xahiş edirik ki, bu şəxsin keçmişini araşdırsınlar".

**Aralarında yaşanan insidentə gəlincə isə S.Hüseynov X.Əhmədzadənin tək onunla deyil, institutda çox adamla dalaşdığını və təhqir etdiyini dedi:** "Xaliq Əhmədzadənin qulağına çatıb ki, bəzi hüquqşünas dostlarım onun haqqında araşdırma aparır. Buna görə də mənə hücum elədi. Bunu təsdiqləyəcək şahidlərim də var və polisdə akt bağlatdırmışam. O mənə hücum edəndə əsəbiləşdim və ürək ağrılarım başladı. Buna görə də təcili yardım çağırdılar. Xaliq Əhmədzadə qonşu otaqdan baxıb gördü ki, mənim otağımın qabağında çoxlu adamlar yığılıb. Bundan qorxuya düşüb oyunbazlıq edib o özü də təcili yardım çağırdı ki, guya özünü yaxşı hiss etmir. Amma bunlar yalandır. Sağlam adamdır və heç bir xəstəliyi yoxdur. Onun barəsində mətbuatda çox yazılıb, amma indiyədək bir tədbir görən yoxdur. İnstitutda heç bir elmi iş görülmür. Çünki bu şəxs imkan vermir. Təsəvvür edin ki, biz yığışıb ancaq ondan xilas olmaq haqda düşünürük. Təhsil eksperti, fəlsəfə doktoru Etibar Əliyev onun haqqında bir neçə məqalə yazıb. Həmin məqalələrdə Xaliq Əhmədzadə haqda obyektiv və düzgün məlumatlar var. O, institutun əməkdaşlarının ürəyindən keçənləri yazıb. Bizim institutun əməkdaşları E.Əliyevə bu institutun xilaskarı kimi baxırlar. Ancaq onun məqaləsində göstərilən faktlara da rəsmi qurumlar münasibət bildirmir".

**X.Əhmədzadə haqqında deyilənlərə cavab vermək istəsə, redaksiya ona cavab haqqı tanıdığını bildirir.**

❑ Günel MANAFLI

---

**Siyasi şərhçi, ABŞ-ın Duke Universiteində Müharibə Tədqiqatları aparmış Elxan Mehdiyev cəbhədəki lokal toqquşmalardan sonra Qarabağ ətrafında yaranmış yeni situasiyanı "Yeni Müsavat" geniş şərh elədi.**



# "Bu mərhələdə həlledici rol Rusiyaya məxsusdur"

## Elxan Mehdiyev: "Bundan sonra dünyanın hərbi ekspertləri Azərbaycan ordusunun bu əməliyyatını modern bir müharibə forması kimi tədqiq edəcəklər"

**Ordumuzun uğurlu döyüş əməliyyatlarına diqqət çəkən ekspert öncə bildirdi ki, Azərbaycan xalqı bu günü 20 il idi ki, gözləyirdi:** "Xalqın ruh yüksəkliyi tarixdə olmayan şəkildə yüksək səviyyədədir. Azərbaycan ordusu ermənilərin dünyada yaratdıqları mifi darmadağın etdi. Məsələ təkcə ermənilərin bu mifi yaratmasında deyildi, bu mifə həm Rusiya, həm Avropa, həm də Amerikanın hərbçiləri, jurnalistləri, siyasi xadimləri və diplomatları inanırdılar. Və mən bu dairələrlə əlaqədə olan şəxs kimi hər dəfə onlardan bu mifi - yəni "ermənilərin müdafiə xətlərini sizin yarmanız, keçməniz mümkün deyil, bu, olsa da, kütləvi qırğın tələb olunacaq" fikirlərini eşidirdim. Buna səbəb son 22 il ərzində Azərbaycan ordusunun atəşkəs xəttindən o biri tərəfə heç bir addım atmaması və verilən siyasi bəyanatların da əməli nəticəsinin olmaması idi. İndi bütün dünya Azərbaycan ordusunun gücündən, onun müasir tələblərə cavab verən hərbi texnologiyasından danışır. Erməni hərbi və siyasi rəhbərliyi şokdadır və hələ də özünə gəlməyib".

**E.Mehdiyev xüsusi vurğuladı ki, erməni ordusu mifi tək xaricdə deyil, Ermənistanda da süquta uğrayıb və xalq qorxu içindədir:** "Ön cəbhəni yarıb irəli keçən və erməni postlarını məhv edən əsgər və zabitlərimiz əsl qəhrəmandırlar. Şəhid olan zabitlər ikiqat qəhrəmandırlar. Çünki 90-cı illərdə "bizdə komandir yoxdur" deyən əsgərlərin önündə indi zabitlər getdi və Qarabağ torpaqları uğrunda şəhid oldular. Bütün xalq onları tanımalıdır!"

**Politoloq əminliklə bildirdi ki, Azərbaycan ordusu bəlkə də Amerikadan sonra ikinci olaraq müasir müharibə elementlərini tətbiq edib:** "Burada pilotsuz təyyarələr erməni tərəfini gücsüz hala salıb və bir zamanlar ən zəif nöqtə olan Azərbaycan artilleriyası indi dəqiqliyi ilə önə çıxıb. İkincisi, ordunun nizamlı əməliyyatı nəticəsində erməni yaşayış məntəqələrinə zərər dəyməyib və əsgərlərin 90-cı illərdə olan qarət və başqa qəbuledilməz hərəkətləri indiki dönəmdə sifra enib. Mən hesab edirəm ki, bundan sonra dünyadakı hərbi ekspertlər Azərbaycan ordusunun bu əməliyyatını bir modern müharibə forması kimi tədqiq edəcəklər. Amma indi Azərbaycan ordusu eyforiyaya uymamalı, əksinə, harada səhvlər olubsa, - əsasən də piyada qoşunları ilə bağlı - onları analiz etməlidir. Çünki indiki məqamda erməni tərəfi Azərbaycanın üstün və mənfi tərəflərini analiz edib vəziyyəti düzəltməyə çalışacaq".

**Lakin E.Mehdiyev Azərbaycanın siyasi rəhbərliyinin atəşi dayandırmaqla bağlı qərarına təəssüf edir:** "İndiki dönəmdə, düşmən nokdaunda ola-ola atəşi dayandırmaq sonrakı proseslərə ağır təsir edə bilər. İkinci dünya savaşından sonrakı təcrübələr göstərir ki, qısa müddət ərzində döyüş meydanında kim uğur qazanırsa, onun təsiri onqat olur. Qısa müddət ərzində bir neçə rayonu azad etmək, faktiki olaraq məsələnin tam həllinə aparardı. Bu baxımdan erməni tərəfi indi özünə gəlib, nəyin bahasına olur-olsun müasir silahlar almağa çalışacaq. Artıq onlar bunun bir qismini son müqavilə əsasında Rusiyadan alırlar. O baxımdan bu əməliyyatların indi başlaması strateji baxımdan həyatı vacib idi və yeni ərazilər alınmalı idi. Çünki ermənilərin alacağı silahlar müəyyən formada balans yaradacaq. İkinci tərəfdən Rusiyanın bundan sonra ermənilərə də belə silahları verməsi ehtimal olunur".



**"Atəşkəs Azərbaycan və Ermənistan tərəfindən Moskvada imzalanmışdısa, o zaman həmsədrlərin Xankəndində nə işi vardı?"**

**Diplomatik səhnədə gedən danışıqlara gəlincə, siyasi təhlilçi bildirdi ki, çox şey yenə Azərbaycan siyasi rəhbərliyinin qətiyyətindən asılı olacaq:** "Dünənə kimi "beynəlxalq birlik nə deyər" deməklə xalqı qorxudanlar indi beynəlxalq birliyin nə dediyini yaxşı gördülər. Kim Azərbaycanın haqsız olduğunu dedi, kim deyə bilər ki? Mübarizə aparmasan, kim sənin sözünü deyəcək? Amma indi xaricdə çoxlarının ermənilərə münasibəti dəyişib və Azərbaycanın bu işlə barışmadığını görürlər. Ermənistan isə təcriddə qalıb".

**E.Mehdiyev həmsədrlərin Xankəndi səfərini Azərbaycana mesaj kimi qəbul edir:** "Yəni bununla Dağlıq Qarabağın müstəqil olmasa da, de-fakto tanıdıqları bir qurumun varlığına işarə edirlər. İkinci tərəfdən, həmsədrlərin oraya səfəri heç də həllə aparan gediş deyil, əksinə, ən radikal fikir və mövqeləri hesabata salmağa yönəlmiş addımdır. Atəşkəs Azərbaycan və Ermənistan tərəfindən Moskvada imzalanmışdısa, o zaman həmsədrlərin Xankəndində nə işi var idi və onların bundan əldə edəcəkləri nədir? Yəqin onlar dərdə şərik olmağa gediblər".

**Danışıqların bundan sonrakı perspektivlərinə gəlincə, şərhçi bildirdi ki, əgər həmsədrlər yenə öz "proses"-lərindən danışacaqlarsa, onlara bu başdan "yaxşı yol" demək işləri irəli aparar:** "Yenə də Uorlikin nəsihətlərinə qulaq asılacaqsa, o zaman erməni tərəfi vəziyyətdən çıxmağa çalışacaq və onlar bunu həm hərbi, həm də diplomatik sahədə yaxın zamanlarda etməyə çalışacaq. Son aylarda həmsədrlərin boykot edilməsi siyasəti doğru addım idi və onlarla məsafə saxlayıb həmən ölkələrin yüksək rəhbərlikləri ilə danışıqlara üstünlük verilməlidir. Əgər həmsədrlər Amerikadakı Erməni Milli Komitəsinin ("Dasnaksütyun") hazırladığı Roys-Engel layihəsini həyata keçirək deyirsə, o zaman Azərbaycan xalqının ümidləri boşa çıxacaq və düşmən dircələcək. Danışıqlarda atəşkəsi qorumaq, möhkəmləndirmək fikirləri yenə də status-kvonu uzatmaq cəhdi kimi qəbul edilməli və həmsədrlərə ancaq ermənilərin işğal ərazilərindən qısa müddətdə çıxması tələbi qoyulmalıdır. Həmsədrlərin Bakıdakı son bəyanatları göstərir ki, hələ də onlar bir paketdən danışır və bu cür yanaşma erməni tərəfinə vaxt udmağa yenə də kömək edəcək. Bu baxımdan indiki durum həmən yanaşmanı da dəyişməyi tələb edir. Bakı da bunu tələb etməlidir, çünki elə bu cür yanaşma son 10 ildə Sərkisyanın çərənləmələrinə yol açıb".

**Siyasi şərhçi Rusiya XİN başçısının Bakıda verdiyi açıqlamaları da şərh etdi:** "Sergey Lavrovun səfəri və onun bəyanatları önəmlidir, amma Rusiyanın son 24 ildə atdığı addımlar və verdiyi bəyanatlar inamsızlıq yaradıb. Digər tərəfdən, bu mərhələdə həlledici rol Rusiyaya məxsusdur. Odur ki, Rusiya ilə normal münasibətləri saxlayaraq Moskvanın Ermənistana dəstəyini minimumlaşdırmaq lazımdır. İndiki bəyanatlar da qısa müddətdə konkret planla sonuclanmasa, status-kvo uzanacaq və erməni tərəfi vəziyyəti dəyişməyə çalışacaq. Optimizmə əsas verən ancaq Azərbaycan ordusunun qətiyyətidir və tarix göstərib ki, bu cür qətiyyətli addımlardan sonra münaqişələrin həllinə yol açılır. Bu baxımdan Lavrov və Medvedyevin səfərləri konkret nəticəyə gətirə bilər".

❑ Elşad PAŞASOY

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 75 (6396) 9 aprel 2016



# Mərhələli, yoxsa paket həll - intensivləşən səfərlər nə vəd edir?

## Qarabağ konfliktini tarixin arxivinə vermək üçün unikal şans yaranıb; politoloq: "Azərbaycan olduqca əlverişli bir dönəmdə heç bir ölkənin diktəsinə imkan verməməlidir"

**Başa çatmaqda olan həftəni bütünlüklə Qarabağ həftəsi adlandırmaq olar. Təkcə "4 günlük" müharibəyə görə yox, həm də atəşkəsin ardınca Qarabağla bağlı diplomatiyanın fəallaşmasına görə. ATƏT-in Minsk Qrupu həmsədrləri, ardınca Rusiya xarici işlər naziri Sergey Lavrovun və baş nazir Dmitri Medvedyevin eyni vaxtda Bakı və İrəvana etdikləri səfərlər 22 illik danışıqlar tarixində xüsusilə yaddaqalan oldu.**




Regiona, konflikt tərəfləri Azərbaycan və Ermənistana xarici diplomatların və siyasilərin intensivləşən səfərləri şübhəsiz ki, Dağlıq Qarabağ münaqişəsi ətrafındakı yeni situasiya ilə bağlıdır. İndi artıq hamı anlayır ki, Qarabağ ixtilafı heç də düşünüldüyü kimi, dondurulmuş deyil, o istənilən an qaynar fazaya - geniş miqyaslı müharibəyə çevrilə, bununla da konfliktə cəlb olunmuş bütün tərəflərin bölgədəki maraqları ciddi ziyan görə bilər.

Ən əsası, bütün dünya gördü ki, Azərbaycan xalqının işğala dözüm limiti artıq bitib və öz ərazilərini istənilən an güc yolu ilə azad eləməyə hazırdır. Belə görünür, bunu indi konfliktin əsas "memarı" sayılan Rusiya da başa düşüb. Hər halda, Rusiya rəsmilərinin, nazir Lavrovun Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması zərurətindən, hətta hansısa həll planından danışması buna kövrək ümidlər yaradır.

Ona görə "kövrək" ki, Moskva əlində unikal imkanlar ola-ola indiyədək dəfələrlə verdiyi bu kimi bəyanat və vədlərdən uzağa getməyib, problemin həllinə ciddi şəkildə girişməyib. Ümid edək ki, heç olmasa, bu dəfə tilsim qırılacaq və Kreml verdiyi sözün ağası olacaq.

"Baş verənlərin 1994-cü ildən bəri bənzəri olmayıb. Məhz bu, bizi, sülhün, o cümlədən Rusiyanın vasitəçiliyi ilə əldə olunan razılaşmaların qorunub saxlanılmasına maksimum əsaslanaraq gərginliyin aradan qaldırılması yollarını axtarmağa vadar edir". Bunu baş nazir Dmitri Medvedev Ermənistanın baş naziri Ovik Abramyan ilə görüşü zamanı İrəvanda bildirib. "Bu, çox mürəkkəb mövzudur. İndi ən əsası sülhü, təmas imkanlarını qoruyub saxlamaqdır. Bu məsələ ilə bağlı Rusiya səylərini əsirgəməyəcək" - Rusiya baş naziri əlavə edib.

Hərgah, o da qeyd olunmalıdır ki, Rusiyanın Dağlıq Qarabağ problemini Bakıdan konkret divident almadan yoluna qoyacağı inandırıcı görünmür. Söhbət ilk növbədə Azərbaycanı Avrasiya İqtisadi Birliyinə və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) qoşmaq cəhdlərindən gedir. Yeri gəlmişkən, bu haqda Rusiya XİN başçısı Sergey Lavrov son müsahibəsində kifayət qədər açıq danışıb.

Siyasi təhlilçilər də bu yöndə maraqlı fikirlər və təxminlər söyləyir. Doğrudur, bu dəfə situasiya Rusiya üçün də həssas və yetərincə risklidir. O üzdən Moskvanın nəsə pozitiv addım atacağına inam əvvəlkilərdən bir qədər yüksəkdir. Ancaq unutmaq lazım deyil ki, bu, Güney Qafqazda mövqelərini daha da gücləndirməyi hədəfləmiş Rusiyadır. Odur ki, "suların durulmasına" qədər gözləmək lazım gələcək. Əks halda, Qarabağ konfliktinin növbəti dəfə daha geniş miqyasda alovlanması ehtimalı artacaq. Yəqin ki, bunu Moskva da bilir.

***

Bir sıra ekspertlər yaranmış durumdan rəsmi Bakının məsələdə irəliləyiş əldə olunması üçün mütləq istifadə etməli olduğu qənaətindədir. Məsələn, **politoloq Qabil Hüseynli** hesab edir ki, Azərbaycan üçün yetərincə uğurlu və əlverişli olan hazırkı situasiyada heç bir dövlətin Qarabağ məsələsində təkbaşına diktəsinə yol vermək olmaz və Azərbaycan fürsətkən məsələnin birdəfəlik - paket həllinə nail olmalıdır: "Hazırkı danışıqlar fonunda Dağlıq Qarabağla bağlı mərhələli həll planı gündəmə gələ bilməz. Azərbaycan ordusunun son zəfərləri bu mövqeyi kifayət qədər möhkəmləndirib. Məsələ paket variantı şəklində həll olunmalıdır" (Axar.az). Onun fikrincə, yaranmış hərbi, siyasi vəziyyət Qarabağ məsələsinə yeni yanaşma tərzi diktə edir: "Son uğurlu hərbi əməliyyatlar nəticəsində Azərbaycan üçün həm döyüş meydanında, həm də danışıqlar masasında kifayət qədər əlverişli şərait yaranıb. Hətta hazırda bəzi ölkələr bunu öz nəzarəti altına almağa çalışırlar. Məqsəd də danışıqlar prosesində mümkün həll variantını öz ssenariləri əsasında həyata keçirməkdir. Rusiya 5 rayonun Azərbaycana qaytarılması üçün Moskvanın erməniləri dilə tutması yönündə təbliğat maşınını işə salıb. Hərbi üstünlüyün diktə olduğu bir şəraitdə bunun heç bir əsası yoxdur. 7 rayonun hamısı geri qaytarılmalıdır. Azərbaycan isə Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verə bilər. Yəni torpaqlar geri qaytarılmalı, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalı və bu çərçivədə də Dağlıq Qarabağın statusu müəyyənləşdirilməlidir".

***

**Politoloq sözsüz ki, ilk növbədə Rusiyanı nəzərdə tutur və təbii ki, təcrübədən çıxış edir.** Çünki Moskva münaqişədə daima konstruktivlikdən çox destruktiv rol oynayıb, ən əvvəl bölgədə öz mənafelərini təsbit eləmək üçün çalışıb. Yenə də belə olmayacağına zəmanət yoxdur. Hər halda, önümüzdəki günlərdə biləcəyik, Kreml konfliktin həllini dalandan çıxarmaq üçün öz forpostu Ermənistana təzyiq etməyə hazırlaşır, yay yox?

Bu olmayacaqsa, o zaman hər şey köhnə axarına qayıdacaq - yeni müharibə riskinin artması ilə birgə. Əlbəttə ki, yeni situasiyanı Qərbin, ələlxüsus da ABŞ-ın necə qiymətləndirməsi də az əhəmiyyət daşımır. Bəs rəsmi Vaşinqton işğalçı Ermənistana münasibətdə ənənəvi yanaşmasına pozitiv düzəliş edəcəkmi? Bu da vacib məqamlardan biridir.

Başqa yandan, ötən saylarımızda da qeyd elədiyimiz kimi, 4 günlük müharibə Vaşinqtonda Nüvə Sammiti zamanı - Azərbaycan prezidenti İlham Əliyev son 10 ildə ilk dəfə ABŞ-da olarkən başlayıb və ehtimal böyükdür ki, bunda ən çox toplantını boykot etmiş Rusiya prezidenti Vladimir Putin maraqlı olub - münaqişə tərəflərinə, ilk növbədə də Qərbə yaxınlaşan Azərbaycana, Amerikaya güc nümayişi üçün.

Bu üzdən məntiqlə Birləşmiş Ştatlar problemin həllində indi daha aktiv olmalıdır. Hədəf isə yaranmış əlverişli durumdan istifadə edib konflikti həmişəlik tarixin arxivinə göndərmək, bununla da böyük bir bölgəni, Qərbin də həyati maraqları olan bir regionu böyük müharibə alovundan uzaqlaşdırmaq olmalıdır. Olacaqmı?

**Bəlkə də, belə fürsət və şans bir daha ələ düşməyəcək.**



# "Azərbaycanın taleyi bizim taleyimizdir"

## Əhməd Davudoğlu: "Rusiya və Ermənistan Türkiyənin münaqişənin həllində iştirakını istəmir"

**"Biz ATƏT-in Minsk Qrupunun üzvüyük. Lakin faktiki surətdə üç həmsədr bu işlə məşğuldur və digər üzvlər prosesdən kənarda qalıb. Halbuki, hər üç ölkə erməni lobbisinin çox güclü olduğu ölkələrdir. Yəni burada balans yoxdur".**

Bu sözləri Türkiyənin baş naziri Əhməd Davudoğlu Finlandiyadan qayıdarkən jurnalistlərin "Ermənistan-Azərbaycan münaqişəsində Türkiyə hansı addımları ata bilər, Minsk Qrupu həmsədrliyinin tərkibinin dəyişməsinin zəruriliyinə inanırsınızmı" sualına cavabında deyib.

**Əhməd Davudoğlu qeyd edib ki, Türkiyənin və digər ölkələrin prosesə qoşulmasını Rusiya və Ermənistan istəmir:** "Biz hazırda ATƏT-ə sədrlik edən Almaniyanın məsələyə qarışması üçün təşəbbüs göstərmişik. Minsk Qrupunun bütün üzvləri bu prosesdə iştirak etməlidir. Son toqquşmalara gəldikdə isə biz Azərbaycanın yanındayıq. Azərbaycana yönəlmiş hər təhdid Türkiyəyə yönəlib. Azərbaycanın ərazi bütövlüyü və taleyi bizim taleyimizdir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 75 (6396) 9 aprel 2016



# Müharibədə ehtiyat şalvar taktikası

**Samir SARI**

**O gün feysbukda gülməli və maraqlı bir status gördüm. "Ədalət" qəzetinin baş redaktoru İradə Tuncayın qələmə aldığı hadisənin qısa məzmunu beləydi:**

1991-93-cü illər arasında Qarabağda gedən müharibə zamanı Aqil Abbas (İradə xanımın həyat yoldaşı) tez-tez cəbhə bölgəsinə gedirmiş, orada yaşayan atasına, qohumlarına baş çəkirmiş. Hər dəfə gedəndə də o, özüylə jurnalist həmkarlarından bir-ikisini aparırmış - əlbəttə ki, onların israrlı arzusuna görə. Atışmanın bir gün belə dayanmadığı vaxtda Aqil müəllim yenə həmkarlarıyla təmas xəttinə yaxınlaşanda "Qrad", top, "Şilka" və sair artilleriya qurğularının atışması başlayır. Gurultu, partıltı, gumbultu səsi bir-birinə qarışır. A.Abbas belə durumlara əvvəlcədən düşübmüş deyə toxtaq olur, amma yanındakılara görə yolunu dəyişir, Ağdamın Evoğlu kəndinə yollanır ki, bu kənddə olan xalası qızına baş çəksin. Çatırlar, avtomobildəkilər yerə düşəndə jurnalistlərdən biri deyir ki, düşə bilməyəcək. Məlum olur ki, onun maşını tərk etməməsinin sadə bir üzrlü səbəbi var. Bəs atışma zamanı adam şalvarını batırıb. Ta nə olsun... Biabırçılıq. Aqil Abbas gedir xalasıqızının evinə, su və şalvar istəyir. Xalaqızının əri də itoynadan adam olur, deyir, dəən, şalvarı batırmısınız. Xüləs, qonaqlara su və şalvar verirlər. Qorxmuş həmkarımız yuyunub üst-başını dəyişəndə məlum olur ki, onun cantaraq canına xalaqızının arıq ərinin şalvarı dar gəlir - təxminən indiki gənclərin geydiyi şalvarlar kimi durur. Amma başqa əlac varmı? Beləcə, yolçular suya-buza dönmüş halda qayıdırlar geri.

Doğrusu, bu hadisəyə gülməyim tutdu, amma bir az da anlayışla qarşıladım və heç də ruhi həyəcan vəziyyətində özünü batırmış həmkarımızı qınamadım. Heç siz də qınamayın. Ö vəziyyətə düşməyən bilməz. Hər özündən deyən oğlan o tappaturupa, guppagupa, partaparta tab gətirməz. Adamın ayağının altından yer qaçır, gözündə şimşək çaxır, qulaqları uğuldayır, ürək döyüntüsü şiddətlənir, beyni tormozlanır, Nəfəs yolları tıncıxır, bir də baxır ki, bay, mədə-bağırsaq sisteminin normal işləməsinə cavabdeh olan sinir hüceyrələri öz funksiyalarını yerinə yetirməyib və biabırçılıq olub.

Top gurultusu müsibət şeydir. 1993-cü ilin noyabrında biz Stalçayda hərbi hazırlıq keçəndə batalyonumuzda iki alovlu vətənpərvər gənc vardı, hər gün komandirlərin beynini xarab edirdilər ki, bizi burda nə bəsləyirsiniz, aparın Qarabağa, düşmənin cavabını verək. Çox çəkmədi ki, apardılar. İlk top səsi gələn günün ertəsi məlum oldu ki, həmin o gənc gedib dalda bir yerdə xayalarına lezva çəkiblər. Guya əvvəlcədən yırtıqları (qrıja) varmış.

Artilleriya atəşinin nabələd adamlar üçün necə vahiməli olduğuna dair bir fakt da yaza bilərəm. Müharibənin qızğın çağında bir tay-tuşumuz cənub rayonlarının birindən müharibə zonasında yerləşən kəndimizə gəlin gətirmişdi. Qızın qohumları da toya gəlmişdilər - dörd "Jiquli"də təxminən 20-25 nəfər. Qonaqlar gələn gün atışma yenidən qıizşdı. Təmas xəttinin camaatı öyrəşmişdi, fikir vermirdi, amma qonaqlar pərişan idi. Toy bitir, gecədir. Atışma şiddətlənir, üstəlik, sakitlikdir deyə, top səsi daha bərk gəlir. Bəyin qohumları israr edir ki, qonaqlar uzaq yola gecə çıxmasınlar, yatsınlar, səhər o başdan gedərlər. Amma nə billah edirlər, qonaqları qohum evlərinə paylayıb yatırda bilmirlər. Hamısı gecə saat 3-ə qədər həyətdə oturur. Növbəti top guppultusu gələndə maşına doluşur, gecəylə kəndi tərk edirlər.

Deməyim odur ki, müharibənin od-alovundan, vur-həşirindən, qan-qadasından xəbərsiz olan adamlar bəzən eyforiyaya elə qapılırlar ki, sanasan, müharibə məhəllə davasıdır, yığılıb gedib yuxarı məhəllənin nadinc uşaqlarını döyüb gələcəklər.

**Elə deyil, qardaşlar. Bu, Bakıda əyninə dar şalvar geyib, bahalı avtomobilə minib, milli bayrağı yelləyə-yelləyə, siqnallaya-siqnallaya küçələrdə dövrə vurmaq qədər asan deyil. Müharibə mövzusunda ürəkli-ürəkli danışmaq üçün ən azı bir-iki dəfə qulağın topun səsini dadmalıdır. Bax, o atışma zamanı şalvardəyişmə proseduru olmadısa, demək, müharibəyə hazırsan.**

# Lələ-təpədən çəkilən kadrlar hərbi sirrin yayılmasıdırmı?

**Azərbaycan ordusunun 2-5 aprel tarixlərində Ermənistanın işğalçı qüvvələrinə vurduğu sarsıdıcı zərbələr nəticəsində düşmən tərəfi xeyli sayda canlı və hərbi-texniki qüvvələrini itirdi. Eyni zamanda ordumuz düşmənin işğal etdiyi bir neçə yüksəkliyi də geri qaytardı. Azərbaycan ordusunun qeyd edilən günlərdə işğaldan azad etdiyi ərazilərdən biri də Füzuli rayonu ərazisində yerləşən Lələ-təpədir.**

Lələ-təpə düşmən işğalından azad edildikdən sonra oraya gedən müğənnilər, ictimai şəxslər ərazidə fotolar çəkərək, bunu ictimaiyyətlə paylaşırlar. İşğaldan azad edilən bu yüksəkliyin və onun ətrafının fotolarının çəkilərək yayılması, hərbi sirr baxımından nə dərəcədə uyğundur?

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan **hərbi ekspert Üzeyir Cəfərov** bildirib ki, bəhs etdiyimiz yüksəklikdən fotoların çəkilərək yayılmasına çox təəccüblənib:

"Bəzən özümüz ya bilərəkdən, yaxud da bilməyərəkdən düşmənin sanki bəzi işlərində ona kömək edirik. Bu bilmirəm eyforiyadan doğub, yoxsa başqa nə məsələdirsə, anlamaq çətindir. Bizim nəzarətimizə keçən yüksəklikləri, Azərbaycan əsgərinin harada yerləşməsini, yeni səngərlərin harada qazılması və digər bu kimi məsələləri çəkib göstərmək qəti şəkildə olmaz. Bunları çəkmək kökündən yanlışdır. Bizim bəzi deputatlarımız da oraya gediblər. Onlar da şəkil çəkib paylaşmışdılar. Əslinə qalsa bu çox kobud səhvdir. Düşmənin vəhşiliklərini təbliğ etmək lazımdır. Ancaq səngərdən şəkillər çəkmək olmaz. Bu şəkillərin sayəsində çox asanlıqla Azərbaycan əsgərinin indiki mövqelərini artilleriya atəşi ilə vurmaq olar".



**"Üzeyir Cəfərov:**
**"Bu kimi məsələləri çəkib göstərmək qəti şəkildə olmaz"**



**Rey Kərimoğlu:** "Yəqin ki, orada fotolar nəzarət altında çəkilir və bu, bizim üçün problem yaradan hallar deyil"

**Döyüşçü-jurnalist Rey Kərimoğlu** isə "Yeni Müsavat"a bildirib ki, həmin ərazi daha öncə düşmənin işğalında olub və oranın relyefi düşmənə bəllidir: "Bu baxımdan oradakı ən xırda daşdan belə çox güman ki, erməninin xəbəri var. Hərbi sirr baxımından oraya insanlar gedərək fotolar paylaşması ciddi məsələ deyil. Düşünürəm ki, Müdafiə Nazirliyi məsləhət bilməsəydi, həmin şəxsləri əraziyə buraxmazdı. Yəqin ki, orada fotolar nəzarət altında çəkilir və bu, bizim üçün problem yaradan hallar deyil. Ancaq bütün hallarda bu kimi məsələlərin əleyhinəyəm. Orada Müdafiə Nazirliyinin özünün çəkiliş qrupu, fotoqrafları çəkilişlər aparsa daha məqsədə uyğun olar. Çünki cəmiyyətimizdə daha çox şəhidlərin real sayını artırmağa çalışan, qələbəmizə qıcıqlanan insanlar da var. Onlar erməni mətbuatına daha çox istinad edirlər. Onlara göstərmək, cəmiyyətimizdə bunu yaymaq üçün oradan çəkilişlərin aparılması hesab edirəm ki, vacib haldır".

**Hansı çəkilişlərin hərbi sirrin yayılması demək olduğuna gəlincə isə Rey Kərimoğlu bildirib:** "Bizdə hərbi sirlərin qorunması ilə bağlı xüsusi qanun var. Bu qanuna görə hərbi hissənin dislokasiya yeri, silah və hərbi texnikanın mövcud duruşu, görünüşü, əsgərlərin sayı, mövqeyi, səngərin özünü belə çəkib yaymaq doğru deyil. Bu baxımdan qeyd edirəm ki, bütün bunlar Müdafiə Nazirliyinin reportyor qrupu tərəfindən edilərsə daha məqsədəuyğun olar".

❑ **Əli RAİS**

# Telekanallar ittihamlara cavab verdi

## "Müharibə günlərində proqram siyasəti tam olaraq cəbhədə baş verənlərə kökləndi"

**Aprelin 1-dən 5-dək cəbhə xəttində baş verənlər zamanı telekanalların fəaliyyəti cəmiyyətdə birmənalı qarşılanmayıb. Bəziləri TV-ləri psevdovətənpərvərlikdə də ittiham etdilər.**

*Bəs telekanallar özləri buna nə deyir?*

**ANS Şirkətlər Qrupu prezidentinin media üzrə müşaviri Mais Məmmədov** "Yeni Müsavat"a açıqlamasında təmsil etdiyi kanalın müharibə mövzusuna kökləndiyini qeyd etdi: "ANS-i izləyənlər bilir ki, bizdə bu günlərdə bütün verilişlər cəbhə ilə bağlı idi. Çünki bu provokasiyalar başlayan kimi Mirşahin Ağayev, Vahid Mustafayev cəbhə bölgəsinə yollandı. Gündə 5-6 dəfə bizə xəbər verirdilər. Hər iki-üç saatdan bir onlar xəbər göndərirdilər. Mən bu insanların belə işləməsi ilə fəxr etdim. Bizim cəbhə bölgələrindəki müxbirlərimiz də Ağdam, Bərdə, Füzuli tərəfdə fəal işlədilər. Elə bir saat olmurdu ki, biz tamaşaçıya təzə xəbər verməyək. Digər televiziyaları isə izləməmişəm, onların fəaliyyəti haqqında heç nə deyə bilmərəm. ANS-də bir dənə də olsun şou verilişi yox idi. Biz əsas ağırlığı döyüşlərin üzərinə yönəltmişdik".

**ATV telekanalının Xəbərlər departamentinin rəhbəri Vaqif Aydınoğlu** bildirdi ki, ATV-də bu günlərdə bütün şou xarakterli proqramlar dayandırılıb: "Yalnız Zaurun verilişi saxlanıldı və onun da profili tamam dəyişdirildi, müharibə ab-havasında quruldu. Bundan başqa xəbərlər proqramı hər saatbaşı efirə çıxdı. Radioda isə şənbə-bazar günləri xəbərlərin verilməməsinə baxmayaraq, bu günlərdə səhərdən axşam saatlarına qədər hər saat iş başında oldu. Cəbhə bölgəsində buradan müxbirlərimiz getməsə də, həmin bölgələrdəki müxbirlərimiz bu işi yerinə yetirdilər. Tovuz rayonunda bizim daimi müxbirimiz ar. Gəncədəki müxbirimiz Goranboya ezam olundu və birbaşa Tapqaraqoyunlu kəndində idi. Bundan başqa Bərdədə, Tərtərdə, Beyləqanda daimi müxbirlərimiz də var idi. Həmçinin Quba müxbirini də biz Tərtərə ezam elədik. Bizim kanalın xəbərlərində vaxt limiti aradan götürüldü. Elə xəbərlərimiz var idi ki, 1 saat 15 dəqiqə davam elədi. Bundan başqa bizim Moskvadakı və Almaniyadakı müxbirlərimiz də bu işə cəlb olundu. Sərkisyanın Almaniya səfərində də müxbirimiz orada idi və birbaşa efirə qoşulurdu. Moskva müxbirimiz də bir neçə dəfə rus ekspertləri ilə bağlantıya qoşuldu. atv.az saytı da xəbər istiqamətində 24 sat fəaliyyət göstərdi".

**"Space" telekanalının icraçı direktoru Kamil Şahverdiyev** isə "Yeni Müsavat"a danışarkən savaş dövründə proqram siyasətinə edilən dəyişikliklərdən danışdı: "Müharibə günlərində bizdə də proqram siyasəti dəyişdirildi. Xəbər buraxılışlarının sayı artırıldı. 1-2 saatdan bir xəbər proqramları efirə yayımlandı. Bütün proqramların profili dəyişdirildi. Həmin günlərdə heç bir şou-proqram efirə getmədi. Şəhidlərimizin xatirəsinə hörmət olaraq əyləncəli verilişləri dayandırdıq. Həmin dövrdə ancaq müharibə filmləri, vətənpərvərlik ruhunda marşlar verildi,




hər saatbaşı xəbərlər proqramı ilə efirə çıxdıq. Cəbhədən ən son məlumatları tamaşaçılarımıza verməyə çalışdıq".

Savaş dövründə efirdə yayımlanan verilişləri dəyərləndirən **telejurnalist Qulu Məhərrəmli** bu dəfə televiziyaların nisbətən qənaətbəxş proqram siyasəti yürütdüklərini açıqladı: "TV-lər bu günlərdə cəmiyyəti qıcıqlandıran bəzi verilişlər də yayımladılar. Məsələn, şou əhlinin əyninə əsgər paltarı geyinib mahnı oxuması mahiyyətcə heç nəyi dəyişmir. İnsafən demək lazımdır ki, xəbərləri normal şəkildə verdilər, Müdafiə Nazirliyinin xəbərlərini işıqlandırdılar. Bununla bağlı müəyyən səriştə göz dəydi. Xüsusən də özəl televiziyalar bu məsələdə normal işlədilər. ANS-in, ATV-nin bəzi xəbərləri auditoriyada razılıq doğurdu. Ancaq ümumiyyətlə, proqram siyasətində heç bir dəyişiklik olmadı. Sosial çarxlar olmadı, çağırışlar olmadı. Bu isə onu deməyə əsas verir ki, belə ekstremal situasiya üçün bizim televiziyalarımızın kifayət qədər hazırlığı yoxdur".

**Media eksperti Zeynal Məmmədli** isə "Yeni Müsavat"a açıqlamasında televiziyaların proqram siyasətini yalnız müharibə üzərində qurmağa ehtiyac olmadığını dedi: "Sərhəddə əməliyyatlar gedir, kəşfiyyat döyüşləri gedir. Bu dövrdə televiziyalardan birdən-birə matəm proqramları gözləmək doğru deyil. Müharibədə həlak olanlara görə matəm və ya qələbə marşları olmalıdır kimi bir qayda yoxdur. Televiziyaların proqram siyasətini tam dəyişməsi də düzgün deyil. Buna ehtiyac da yoxdur. İctimai rəydə hər hansı qıcıqlanmalar varsa, bu daha çox həmin verilişlərin keyfiyyəti ilə bağlı olmalıdır. Çünki insanlar gündəlik olaylarla maraqlanır. Düzdür, indi manatın məzənnəsi, dolların kursu, cəbhədəki hadisələr və sair insanları daha çox maraqlandırır. Bu baxımdan mən televiziyaların proqram siyasətində xüsusi "cinayət" axtarılmasının tərəfdarı deyiləm".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 75 (6396) 9 aprel 2016



# At əti işbazları...

**Yolçu Xanvəli:** "700 kiloqram sümüksüz ətin zərərsizləşdirilməsinə qərar verildi"
**Eyyub Hüseynov:** "Əgər bunun arxasında heç kim durmursa, nə üçün sifarişçini tapmırlar?"

**Daxili İşlər Nazirliyinin Baş İstintaq və Təhqiqat İdarəsinin əməkdaşları əməliyyat məlumatları əsasında martın 31-dən aprelin 1-nə keçən gecə Qaradağ rayonundakı Dövlət Yol Polisi postunda Süleymanov Faiq Qərib oğluna məxsus avtomobili saxlayıblar. Avtomobilə baxış keçirilərkən mənşəyinə və keyfiyyətinə dair heç bir baytarlıq sənədi olmayan 700 kq-a yaxın heyvan cəmdəyi aşkarlanıb. Cəmdəklərin qida üçün yararlı olub-olmamasını müəyyənləşdirmək məqsədilə baytarlıq qanunvericiliyinə uyğun nümunələr götürülərək bakterioloji, biokimyəvi müayinələr üçün Respublika Baytarlıq Laboratoriyasına göndərilib.**

Respublika Baytarlıq Laboratoriyasının ekspertizasına əsasən yoxlanılan 17 nümunə heyvan ətinin hamısının at əti olduğu müəyyən edilib. Aparılan bakterioloji müayinə zamanı nümunələrdə bakterioloji çirklənmə *(BÇQB, stafilakokkus, aureus)* aşkar olunub. Biokimyəvi müayinələr (pH, peroksidaza və göydaş reaksiyaları) zamanı isə 17 nümunə ətin keyfiyyətsiz olduğu müəyyən edilib. Ət nümunələrinin baytarlıq-sanitariya cəhətdən tamamilə yararsız olduğu müəyyənləşdirilib...

Ümumiyyətlə, son vaxtlar ətlərlə bağlı bir çox problemlər yaşanmaqdadır. Artıq ikinci dəfədir ki, külli miqdarda at əti aşkarlanır. Bütün bu neqativ hallar bizdə yediyimiz ətə dair şübhələr yaradır. Əgər 700 kiloqram at əti rahat bir şəkildə gətirilirsə, deməli ki, bu əti sifariş edən işbazlar var. Kim bilir, ələ keçməyən ət işbazları nə qədərdir, daha hansı yararsız ətlər bazarlarda yer alır. Bu cür ətlər adətən dönərxanalara və restoranlara ötürülür.

Bir neçə dönərxanaya baş çəkib əti haradan aldıqları ilə maraqlandıq. Baş çəkdiyimiz dönərxanaların hamısından demək olar ki, eyni cavabı aldıq. Onlar dönəri təzə dana ətindən hazırladıqlarını, əti isə bəziləri tanıdıqları qəssabdan aldıqlarını, bəziləri isə özləri kəsdiklərini deyirdi. Ancaq heç bir dönərxanada bizə ətin keyfiyyətli olmasına dair bir sənəd göstərən olmadı. Əvvəllər dönərxanalarda uyğunluq sertifikatı olurdu. İndi bu sertifikata da rast gəlmədik.

**Paytaxt sakini Elvin Əliyev** insanların sıx olduğu ərazilərdə satılan dönərlərin yaxşı olduğunu, ancaq kənarda satılan dönərlərə qatqılar vurulduğunu dedi: "Mərkəzdə dönər baha olsa da, keyfiyyətlidir. Ancaq kənar yerlərdə ətin qəribə tamı olur. Bəlkə də gətirdikləri at ətini bu dönərlərə qatırlar".



**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin rəhbəri Yolçu Xanvəli** aşkarlanan at ətinin zərəsizləşdirilməsinə qərar verildiyini dedi: "Biz dövlət Baytarlıq Xidməti olaraq mütəmadi reydlər aparırıq. Tək at ətinə deyil, mənşəyi bəlli olmayan, insan sağlamlığı üçün zərərli olan ətlərin aşkar edilməsi istiqamətində də reydlərimiz olur. Eləcə də ayrı-ayrı baytarlıq qeydiyyatında olan müəssisələrdə baytarlıq nəzarətini həyata keçiririk. Bu bizim vəzifə funksiyamız aiddir. Amma bu ətləri kimin sifariş etdiyi, haradan gətirildiyi və kimə çatdırıldığını araşdırmaq bizim səlahiyyətimizdə olan məsələ deyil. 700 kiloqramlıq ət ati bizə çatan məlumat əsasında tutulub. Biz bu ətin müayinəsini apardıq. Müayinə zamanı ətdə bakterial çirklənmə aşkar edildi. Eləcə də baytarlıq sanitariya cəhətdən keyfiyyətsiz və insan qidası üçün yararsız olduğu müəyyən edildi. Bu ətdə bağırsaq çöpləri, məişət infeksiyaları aşkar olundu. Ona görə də tutulan 700 kiloqram sümüksüz ətin zərərsizləşdirilməsinə qərar verildi. Bu gündə həmin tədbir Sumqayıt Məişət Tullantıları poliqonunda həyata keçirilir. Biz kəsim məntəqələrində və baytarlıq nəzarəti olan obyektlərdə bu həyata keçirilir. Dönərxanalar və digər yerlər tək bizim yox, digər qurumlarında səlahiyyətinə aid olan məsələdir. Biz çiy ətin sağlam olmasına nəzarəti həyata keçiririk. Onun saxlanması, bişirilməsi məsələsi isə digər aiddiyyəti qurumların işidir ki, onlar buna daim nəzarət etməlidirlər".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** bu cür ətlərinin sifarişçilərinin açıqlanmamasının müəmmalı bir məsələ olduğunu dedi: "Dövlət orqanları, baytarlar guya bu murdar ətləri ifşa edir. Lakin bu ətin haradan gətirildiyini açıqlamır. Çünki bu ətlərin sifarişçisi olmasa, meydana çıxmaz. Əgər bunun arxasında heç kim durmursa, nə üçün onun sifarişçisini tapmırlar, bu qaranlıq bir məsələdir. 20 ilə yaxındır ki, Azad İstehlakçılar Birliyi murdar ət, leş yığanları ifşa etmək istəyir. Lakin buna nail ola bilməmişik. Baxmayaraq ki, onların telefonlarını, vizitkalarının hamısını dövlət orqanlarına vermişik. Dönərxanaların 3 il öncə standartları hazırlandı. Dönərləri hazırlayan, onu şişə taxan, bükən, avtomobillərində dönərxanalara çatdıran müəssisələr müəyyən olundu. Mən özüm o müəssisələrdə gedib monitorinq aparmışam və görmüşəm ki, təmiz heyvan ətindən hazırlanır. Lakin bizim araşdırmamız göstərdi ki, 85 faiz yerlərdə ət heç də o yerlərdən alınmır".

**Dönərxanalardakı uyğunluq sertifikatına gəlincə isə qurum sədri bildirdi ki, ölkəmizdə 800-ə yaxın mal sertifikatlaşdırılmadan satılır:** "Mənim əlimdə sənədlər var ki, ölkəmizdə Nazirlər Kabinetinin 343 saylı qərarına qətiyyən əməl olunmur. 343 saylı qərar təhlükəsizliyi təmin olunan mallar siyahısıdır. Təhlükəsizliyi təmin olunan mallar siyahısına daxil olan mallar sertifikatlaşdırılmır. Bundan başqa mənim əlimdə sənəd var ki, 800-ə yaxın mal heç bir sertifikat olmadan satılır. Ölkənin qərarları var, bu qərarlar nəzəri cəhətdən yaxşıdır, praktik cəhətdən pis. Dövlətin sahibkarlar üçün yaratdığı bu yaxşı şəraitdən sahibkarlar sui-istifadə edir. Buna da səbəb odur ki, ölkədə mükəmməl istehlakçı siyasəti yoxdur. Bu cür neqativ halların qarşısını almaq üçün dövlət üzünü istehlakçılara doğru çevirməlidir. Bilməlidir ki, dövləti də, ordunu da bir yerdə saxlayan istehlakçıdır. Mükəmməl istehlakçı siyasəti formalaşmalıdır. 3 gün öncə İqtisadiyyat Nazirliyinin komandası ilə görüşəndə də qeyd etdim ki, nə qədər Azərbaycan dövləti üzü istehlakçılara doğru çevirməyib, nə bazar iqtisadiyyatı inkişaf edəcək nə də ki, başqa şey. Monopoliya olacaq və istehlakçıların hüquqları pozulmağa davam edəcək".

❑ **Günel MANAFLI**

# Əmlak Komitəsi niyə mənzillərə "kupça" vermir?

**Qulu Xəlilov:** "Vətəndaşların şikayəti bizdən yox, digər qurumlardan, eləcə də Mənzil Tikinti Koperativlərindən ola bilər"



**İstər fərdi tikililərdə , istərsə də yeni tikilən çoxmərtəbəli binalarda yaşayan vətəndaşların mənzillərin dair mülkiyyət haqqında sənəd ala bilməməsi problemi bu gün də aktualdır. Bununla bağlı "Yeni Müsavat"ın redaksiyasına zaman-zaman şikayətlər daxil olur. Hətta redaksiyamızın yeni tikililərdə mənzili olan bir neçə əməkdaşı da 10 ilə yaxındır mənzillərinə el dili ilə desək, "kupça" ala bilmirlər. Bəs Əmlak Komitəsi tərəfindən verilməli olan bu sənədlərin vətəndaşlardan əsirgənməsinin səbəbi nədir?**

İddialar var ki, xüsusən MTN olaylarından sonra mənzillərə mülkiyyəti təsdiq edən sənədlərin verilməsi dayandırılıb.

"Yeni Müsavat" məsələ ilə bağlı ekspertlərin və aidiyyəti dövlət qurumunun rəyini öyrənməyə çalışıb.

**Daşınmaz əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimov** problemin daha çox yeni tikilən binaların Dövlət qəbul Komissiyasından keçməməsi ilə bağlı olduğunu bildirdi: "Mənzil təkrar alqı-satqı əməliyyatına cəlb olunubsa, o zaman "kupça" ASAN xidmətdən alınır və burada heç bir problem yaşanmır. Əsas problem mənzillərin ilkin qeydiyyatı zamanı yaşanır. Vətəndaşlar onu nəzərə almalıdırlar ki, Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinə müraciət edəndə hansı sənədlər əllərində olur. Məsələn, qanunsuz bir yerdə gedir ev tikir və sonra Əmlak Komitəsinə gedib sənəd tələb edir. Komitənin isə ona sənəd verməyə ixtiyarı yoxdur. Çünki torpaq sahəsini vətəndaş alqı-satqı yolu ilə bələdiyyədən ala bilər. Əgər bu sənədlər əlində varsa, Əmlak Komitəsindən "kupça" ala bilər. Sənədləri qaydasında olan adamın Əmlak Komitəsində incidilməsi hallarına mən demək olar ki, rast gəlməmişəm. Yeni tikilən çoxmərtəbəli binalardan yaşayan vətəndaşların "kupça" ala bilməməsinin səbəbi isə odur ki, həmin binalar Dövlət Qəbul Komissiyasında istismara qəbul olunmayıb. İstismara qəbul aktı olandan sonra Əmlak Komitəsinin heç bir ixtiyarı yoxdur ki, vətəndaşa sənəd verməsin. Binanın istismara qəbul aktı olmalıdır ki, orada yaşayan vətəndaşlara da mənzillərini sənədləşdirə bilsinlər".

**Ekspertin sözlərinə görə, problemin günahı Əmlak Komitəsində deyil, həmin binanı tikən şəxslərdədir ki, vaxtında sənədləri alsınlar, binanın təhvil-təslimi eləsinlər:** "Sahibkarlar, binanı tikirlər, satırlar, pullarını da cibinə qoyub yoxa çıxırlar. Çox binalarda vəziyyət bu cürdür. Bəzən vətəndaşlardan pul da yığılır ki, binanın istismara qəbul aktı alınsın. Ancaq vətəndaş pul verməməlidir. Binanı tikən şirkətin borcudur ki, onu Dövlət Qəbul Komissiyasına təhvil versin. Bina təhvil verilməyibsə, istismara qəbul olunmayıbsa, vətəndaşın "kupça" almaq haqqı yoxdur. Vətəndaşlar yığışıb yerli icra orqanlarına müraciət edə bilərlər, məhkəmələrə müraciət edə bilərlər və sair. Həmin mənzillərə qaz verilməməsinin də səbəbi budur. Bina istismara qəbul olunmayıbsa və binada ən azı 30 faiz yaşayış bərpa olunmayıbsa, oraya qaz verilməsi də mümkün deyil".

**ƏMDK-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Qulu Xəlilov** isə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, qanunvericiliyə uyğun olaraq mülkiyyət haqqında sənədin verilməsi üçün heç bir problem yoxdur: "İstənilən vətəndaşın sənədləri Daşınmaz Əmlakın Dövlət Reyestri haqqında qanunun tələblərinə cavab verirsə, onları toplayıb Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə müraciət edə bilərlər. Qanunvericiliyə görə, müəyyən olunmuş müddətdə onlara hazır şəkildə sənədlər təqdim olunacaq. Yəni biz bununla bağlı kütləvi çıxarış kompaniyası da keçirirk, Bakı şəhərində yeni tikilmiş binalara da çıxarışlar veririk. Vətəndaşların şikayəti bizdən yox, digər qurumlardan , eləcə də Mənzil Tikinti Koperativlərindən ola bilər ki, onlar vətəndaşlara sənədləri vaxtında təhvil vermirlər, vətəndaşlara əsassız tələblər irəli sürürlər".

**Q.Xəlilov qeyd etdi ki, mənzilin mülkiyyət haqqında sənədinin verilməsi üçün binanın istismara qəbul aktı da olmalıdır:** "Bütün bu sənədlər bizə təqdim olunandan sonra, biz də heç bir problemsiz vətəndaşlarımıza bu sənədləri veririk. Yalnız dövlət rüsumu və xidmət haqqı banklar vasitəsilə ödənir. Əksər binalarda "kupça"ların verilməməsi həmin binaların Dövlət Qəbul Komissiyasından keçməməsi ilə bağlıdır. İstismara qəbul aktı olmadan biz mənzillərə çıxarış verə bilmirik. O problem bizim problem deyil. Biz sənədləri qaydasında olan vətəndaşlara kütləvi qaydada sənədlərini mənzillərinə aparıb yerindəcə veririk".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 75 (6396) 9 aprel 2016

# Bakıda iki avtobus toqquşdu, ölən və yaralananlar var







**Bakının Nizami rayonu ərazisində ölümlə nəticələnən yol qəzası baş verib. Musavat.com-un məlumatına görə, hadisə "Diqlas" ticarət mərkəzinin qarşısında olub. 103 saylı marşrut xətti ilə hərəkət edən avtobus piyadaları vurduqdan sonra digər, 30 saylı marşrutun avtobusuna dəyib, nəticədə yenə də sərnişinlər xəsarət alıb.**

Onlardan biri - 60 yaşlı qadın hadisə yerində ölüb. Yaralılar isə təcili tibbi yardım avtomobili xəstəxanaya çatdırılıb. Musavat.com qəza zamanı dünyasını dəyişən piyadanın şəxsiyyətini dəqiqləşdirib. Məlumata görə, bu, 60 yaşlı Jitova Svetlana Yuriyevnadır.

Səhiyyə Nazirliyi bu gün Bakıda baş vermiş avtobus qəzasında xəsarət alanların sayını açıqlayıb. Nazirliyin mətbuat xidmətindən APA-ya verilən xəbərə görə, qəza nəticəsində 9 nəfər xəsarət alıb.

Onlardan 7 nəfəri 3 saylı Şəhər Klinik Xəstəxanaya, 2 nəfəri isə Travmatologiya İnstitutuna yerləşdirilib.

3 saylı Şəhər Klinik Xəstəxanasından APA-ya verilən xəbərə görə, qəza nəticəsində Qurbanov Abbas, Əliyeva Mehri, Qurbanova Tamella, Kərimova Gülmərcan, Zeynalova Gültən, Ağamirzəyeva Əzizə və naməlum kişi xəsarət alıb.

Sərnişin avtobuslarının və minik avtomobilinin toqquşması nəticəsində baş verən qəzanı törədən sürücü hadisə yerindən qaçıb.

Bakı Şəhər Prokurorluğundan "Report"a verilən məlumata görə, faktla bağlı Nizami Rayon Polis İdarəsinin İstintaq şöbəsində Cinayət Məcəlləsinin 263.2 *(yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda)* və 264-cü *(yol nəqliyyat hadisəsi yerindən qaçma)* maddələri ilə cinayət işi başlanılıb. İstintaq aparılır.

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** ***(enurez)***
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

# Sabirabad sakini öz evini yandırdı

**Sabirabad sakini ailə münaqişəsi zəminində öz evini yandırıb. APA-nın məlumatına görə, hadisə bu gün axşam saatlarında Sabirabad rayonunun Qalağayın kəndində qeydə alınıb. Həmin kəndin sakini, 1975-ci il təvəllüdlü Abbasov Elçın Əliş oğlu yaşadığı evə benzin tökərək yandırıb.**

Fövqəladə Hallar Nazirliyinin Sabirabad Yanğından Mühafizə xidmətinin əməkdaşlarının yanğının baş verən an hadisə yerində olmaları yanğının genişlənməsinin qarşısını alıb. 61 kvadratmetrlik 2 mərtəbəli evin birinci mərtəbəsində qəsdən törədilən yanğın bir-neçə kvadratmetri əhatə edib. Hadisəyə ev sahibinin həyat yoldaşı ilə boşanması səbəb olub.

Faktla bağlı Sabirabad polis şöbəsində tədqiqat aparılır.

## Elan

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**
**Telefon: (050) 264-49-99**

## Göyçayda iki avtomobil toqquşdu; ana və oğlu ağır yaralandı

**Göyçay rayonunda iki nəfərin ağır xəsarət alması ilə nəticələnən avtomobil qəzası baş verib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə bu gün saat 12:00 radələrində Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 220-ci kilometrliyində, Göyçay şəhəri ərazisində qeydə alınıb. 68-BA-491 dövlət nömrə nişanlı, "VAZ 21011" markalı minik avtomobili qarşı tərəfdən gələn 99-CH-440 dövlət nömrə nişanlı, "Audi" markalı minik avtomobili ilə toqquşub.**

Hadisə zamanı hər iki avtomobil yoldan çıxaraq hasara çırpılıb. "VAZ 21011" markalı avtomobilin sürücüsü, 1977-ci il təvəllüdlü Manafov Vüsal Rafael oğlu və anası, 1955-ci il təvəllüdlü Manafova Gülburə Məmməd qızı ağır bədən xəsarətləri ilə Göyçay Mərkəzi rayon Xəstəxanasına yerləşdirilib.

Faktla bağlı Baş Dövlət Yol Polisi İdarəsinin istintaq və təhqiqat şöbəsi tərəfindən araşdırma aparılır.

## İsmayıllı sakini atdan yıxılaraq öldü

**İsmayıllı rayon sakini atdan yıxılaraq ölüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, hadisə İsmayıllı rayonunun Çayqovuşan kəndində qeydə alınıb. Rayon sakini Səhliyar Məmmədov atdan yıxılaraq dünyasını dəyişib.**

Faktla bağlı araşdırma aparılır.

## Bakıda sərxoş sürücü yol polisi avtomobilini vurub, 1 polis xəsarət alıb

**Paytaxtın Nərimanov rayonunda sərxoş sürücü yol polisi avtomobilini vuraraq qəza törədib. APA-nın məlumatına görə, hadisə Heydər Əliyev prospektində qeydə alınıb. Mahmud Mahmudov "BMW" markalı avtomobili ilə yüksək sürətlə hərəkətdə olarkən yol kənarında dayana yol patrul xidmətinin avtomobilinə çırpılıb. Qəza nəticəsində yol polisi əməkdaşı Bədir Bədirli xəsarətlər alıb. O, xəstəxanaya yerləşdirilib. Həkimlər sınıq xəsarətləri alan yol polis əməkdaşının vəziyyətinin qənaətbəxş olduğunu bildiriblər.**

Qəza törədən sürücü Mahmud Mahmudovun sərxoş olması müəyyən edilib. Söhbət zamanı Mahmud Mahmudov baş verən hadisədən xəbərsiz olduğunu bildirib.

Faktla əlaqədar Nərimanov Rayon Polis İdarəsində araşdırmalara başlanılıb. Qəzanın səbəbləri təyin olunan avtotexniki ekspertizanın rəyindən sonra məlum olacaq.

## Nazirlik qəzalarla bağlı reydlərə başladı

**Paytaxt ərazisində baş verən avtobus qəzalarının sayı artıb. Bu gün Nizami rayonu ərazisində baş verən avtobus qəzası və hadisə nəticəsində xəsarət alanların olması dediklərimizi bir daha təsdiqləyir.**

Məsələ ilə bağlı Modern.az saytına danışan Nəqliyyat Nazirliyi Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin (NİİM) ictimai əlaqələr üzrə mütəxəssisi Rauf Mirqulamov hazırda hüquq-mühafizə orqanları tərəfindən hadisənin səbəblərinin araşdırıldığını bildirib:

"Qəzanın səbəbləri araşdırılır. Nəticə barədə ictimaiyyətə məlumat veriləcək. Sürücülərin və müntəzəm sərnişindaşıma fəaliyyəti ilə məşğul olanların məlumatlandırılmasına gəldikdə isə Bakı Nəqliyyat Agentliyi qısa müddət əvvəl onlara qanunvericiliyin tələblərinə riayət etmələrilə bağlı xəbərdarlıq edib. Aprel, may aylarında bütün daşıyıcılar üzrə reyd və yoxlamalar daha intensiv şəkildə aparılacaq. Yoxlamalara bariz nümunə olaraq 63 saylı avtobus marşrutunun ləğv edilməsini göstərmək olar. Bu xətdən dəfələrlə şikayətlər daxil olduğu üçün həmin marşrutun fəaliyyəti dayandırılıb".

**Qurum rəsmisi 63 saylı avtobus marşrutunun aprelin 1-dən etibarən ləğvi barədə qərarın icra olunmamasına da münasibət bildirib:** "Bəli, hazırda marşrut işləyir, amma yaxın günlərdə tamamilə yığışdırılacaq. Hələlik istifadəsinə icazə verilməsinə səbəb sərnişinlərin adaptasiyasının nəzərə alınmasıdır. Hazırda 63 saytı marşrut xəttini əvəzləyən BakuBus MMC-nin 3 saylı xəttidir".

**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**
**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel (051) 634-40-01.**

YENİ MÜSAVAT
N 75 (6396) 9 aprel 2016

# "Toy yoxdursa, bir qəpik də verməyəcəyik"

**"Süpürgəçi cüzi maaşdan vergi ödəyirsə, müğənni də ödəməlidir". Ötən gün Vergilər Nazirinin müavini Sahib Ələkbərovun şou əhlinin vergidən yayınmasından şikayətlənərkən səsləndirdiyi bu ifadə bundan öncə də olan sənətçilər ilə nazirlik arasında yaşanan problemi yenidən gündəmə gətirib. Nazir müavini vurğulayıb ki, il ərzində toylardan yüz minlərlə manat pul qazanan müğənnilər ildə yalnız 40-50 manat vergi verməklə real məbləğdən yayınırlar.**

Qeyd edək ki, ötən ilin dekabrında nazirlik bir qrup müğənnini vergi borclarını ödəmədiyi üçün cərimələmişdi. Çoxlu sayda tanınmış sənətçi nazirliyə dəvət olunmuş və onlardan tez bir zamanda vergi borclarını ödəmək tələb olunmuşdu. Xəbərdarlıq alan müğənnilər arasında Ədalət Şükürovun, Gülyaz Məmmədovanın, Manaf Ağayevin, əməkdar artist Baloğlan Əşrəfovun və digərlərinin adı çəkilirdi.

*Bəs görəsən hazırda hansı sənətçinin vergilər nazirliyinə borcu var? Müğənnilərin illik vergi ödənişi nə qədərdir?*

Məsələ ilə əlaqədar bir neçə müğənniyə müraciət etdik.

**Xalq artisti Gülyaz Məmmədova** sualımızdan yayınmağa çalışdı:

"Bu barədə yalnız onu deyə bilərəm ki, mənim vöenim var. Nə qədər vergi ödədiyimi isə Gülyanaq *(bacısı Gülyanaq Məmmədova - **red.**)* bilir. Çünki hesab işləri ilə o, məşğul olur".



**Gülyaz Məmmədova:** "Nə qədər ödədiyimi Gülyanaq bilir"



**Elza Seyidcahan:** "Elə bilirsiz hər addımda pul qazanırıq?"

**Əməkdar artist Röya Ayxan**ın köməkçisi Vüsal Rzazadə isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, müğənninin heç bir vergi borcu yoxdur: "Hər bir sənəd yerindədir, işimizi müqavilə əsasında gördüyümüzdən vergilərə heç bir borcumuz yoxdur. Dövlətin vergisi nədirsə, onu da ödəyirik".

**Müğənni Nadir Qafarzadə**nin Ruslan adlı köməkçisi *(özünü belə təqdim etdi X.G.)* də qeyd etdi ki, müğənninin borcu yoxdur. Köməkçi onu da vurğulayıb ki, toylar olmadığından vergilər ödəməyə də ehtiyac qalmır: "Vaxtında nə deyilibsə ödəmişik, çeklərimiz əlimizdədir. 18 faizlə vergi ödəyirik.

Nazir müavinin verdiyi açıqlamaları özüm oxumuşam. Onun dedikləri hər kəsə şamil edilmir. Müğənni çoxlu saydadır. Öz adımızdan deyirəm ki, biz vergini vaxtında ödəyirik. Ödənişlər də müxtəlif olur. Günü bu gün isə nə günlük, nə də illik gəlirimiz var. Hazırda toylar həqiqətən də yoxdur. Bütün şadlıq evlərində Vergilər Nazirliyi kameralar yerləşdirib. Baxıb görə bilərlər ki, Nadir Qafarzadənin bir ay ərzində 10 və ya 5 toyu olub. Orucluq ayından sonra toylar yoxdur. Bu, pis yox, acınacaqlıdır. Müğənninin də öz işçiləri, onlarında ailələri var. Pul olmayandan sonra Nadir Qafarzadə onlara necə pul versin? Hamını, müğənniləri də başa düşmək lazımdır. Toy olmayandan sonra müğənni pulu haradan qazansın?"

**Əməkdar artist Elza Seyidcahan** da indiki toyların daha çox hədiyyə toylar olduğunu bildirdi: "Vergidən heç kəs yayınmamalıdır. Allah eləsin ki, xaricdə olan müğənnilər kimi biz də ayağımızı, qədəmimizi qoyduğumuz yerdən qonorar alaq və sevə-sevə vergiləri ödəyək. Elə bilirsiz Azərbaycanda iştirak etdiyimiz tədbirlərdə, atdığımız hər bir addımda pul qazanırıq? Xeyr".

**Müğənni Manaf Ağayev** illik vergi ödənişlərini açıqlayıb: "Əvvəllər illik ödənişlərim 500-1000 dollar arası olurdu. Bu da toylardan aslıdır. Bəzi toylar ucuz, bəzisi baha, bəziləri isə qohum toyları olurdu. Qohum toyuna pulla getmirik ki, gedib hələ pul da salırıq. Toyları siyahıya alırlar və biz toylara gedəndə vergimizi ödəyirik. Burda gizlin bir şey yoxdur. Vergilərə mənim borcum yoxdur. Nə getdik veririk, yayınma yoxdur. Nə olub onu da ödəmişik. Lakin bu dəqiqə toy yoxdur, özləri də bilir *(Vergilər Nazirliyini nəzərdə tutur X.G.)*. İndi toy yoxdur, bir qəpik də vermirəm. Gedərəmsə verirəm. Toyları olmayan təkcə mən deyiləm, hər yerdə belədir. Hazırda müharibə, krizis dönəmində olduğumuzdan toy da yoxdur. Bu, musiqiyə görə deyil. Toy edirlər, toya gələn yoxdur. Heç dəvətnamə də verən yoxdur, gedib pul salaq".

**Müğənni Abbas Bağırov** isə nə qədər vergi ödəniş etdiyini açıqlamaq istəmədi: "2002-ci ildən vergi ödəyicisiyəm. Bu günədək Vergilər Nazirliyi ilə heç bir problemim olmayıb".

❑ **Xalidə GƏRAY**

# Aygün Kazımova ilə bağlı araşdırma başlayıb - iddia

## Hüquq-mühafizə orqanları tərəfindən müğənninin ermənilərlə əlaqələrinin təftiş edildiyi, xalq artistinin barəsində mətbuatda yazılanların yoxlanıldığı deyilir




**Azərbaycan hüquq-mühafizə orqanları ölkəmizin şou-biznesinə sızmış erməniəsilli şəxslər və onların əlaqələrini araşdırır. Bu haqda musavat.com-a etibarlı mənbədən məlumat daxil olub. Redaksiyamıza daxil olan məlumata görə, məsələni bir neçə orqan paralel olaraq saf-çürük edir. Belə bir araşdırmaların aparılmasını zəruri edən isə bir müddət əvvəl ölkə mediasında yayılan məlumatlardır.**

Belə ki, bir müddət əvvəl "Yeni Müsavat" qəzetində "Azərbaycanın şou aləmində Ermənistanın xüsusi xidmət orqanlarının agentləri var" sərlövhəli yazı dərc edilmişdi. Həmin yazıda Ermənistan xüsusi xidmət orqanlarının qadın alverçiləri, qeyri-ənənəvi oriyentasiyalı şəxslər üzərindən Azərbaycanın şou aləminə nüfuz etmələrinin detalları haqda bilgilər yer almışdı. Redaksiyamıza daxil olan məlumatlardan belə aydın olurdu ki, düşmən ölkənin xüsusi xidmət orqanları vaxtilə Ermənistanda yaşamış, sonradan Gürcüstana köç edərək orada məskunlaşan Ekmalyan ailəsinin üzvləri üzərindən Azərbaycan və Türkiyədə agent şəbəkəsini qura biliblər.

Bu ailənin Azərbaycanda tanınan siması Romazzo adlı modelyerdir. Romazzo zaman-zaman Azərbaycanda və Türkiyədə keçirilən müxtəlif moda tədbirlərində fəxri qonaqlar sırasında yer alıb. Türkiyədə Romazzonun təşkil etdiyi müsabiqəyə qatılan model xanımlar sonradan şəxsiyyət vəsiqələri əllərindən alınaraq seks-köləliyə məcbur ediliblər. Həmin modellər arasında Azərbaycandan aparılan xanımlar da olub. Bu haqda Türkiyə mediasında zamanında yazılar dərc olunub.

Romazzonun Azərbaycanda əsas əlaqəsi olduğu şəxs kimi Aygün Kazımova göstərilirdi. Xatırladaq ki, bu yazılar A.Kazımovanın Romazzo və digər erməniəsilli şəxslərlə foto və video görüntülərinin müşayiəti ilə dərc olunub.

Bu səs-küylü materiallar, deyilənə görə, hüquq-mühafizə orqanlarının diqqətini çəkib. Redaksiyamızı bu barədə bilgiləndirən mənbə iddia edir ki, artıq Aygün Kazımova ilə bağlı araşdırma başladılıb. Müğənninin barəsində yazılanlar araşdırılır.

**Bu haqda əlavə məlumat verməyə çalışacağıq.**

❑ **E.HÜSEYNOV**

# Ötən ay Azərbaycandan çıxarılan əcnəbilərin sayı açıqlanıb

**Bu ilin mart ayı ərzində 1728 əcnəbi tərəfindən Azərbaycanda olma, habelə müvəqqəti və daimi yaşama qaydalarına əməl etmədən inzibati qanunvericiliyin tələblərinin pozulması halları müəyyən edilib.**

Dövlət Miqrasiya Xidmətinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, onlardan 17-nin Azərbaycan ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün əsas verən sənədləri itirildiyindən yenisi ilə əvəz olunub, 131 nəfərin ölkə ərazisində yaşamaları leqallaşdırılıb, 1293 əcnəbinin Azərbaycan ərazisini 48 saat ərzində tərk etmələri, 287 əcnəbinin isə inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılmaları barədə qərarlar qəbul edilib.

Ümumiyyətlə, ay ərzində Dövlət Miqrasiya Xidmətinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən ölkədə müvəqqəti olma müddətlərinin uzadılması, müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, vətəndaşlığa qəbul, xitam, bərpa, eləcə də vətəndaşlıq mənsubiyyətinin və qaçqın statusunun müəyyənləşdirilməsi, həmçinin əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazələrinin verilməsi və mövcud iş icazələrinin müddətlərinin uzadılması ilə bağlı 9 min 230 müraciət daxil olub. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib. Ötən ay ərzində olduğu yer üzrə qeydiyyatla bağlı 50 min 82 əcnəbinin müraciəti qeydə alınıb.

YENİ MÜSAVAT
Son səhifə
N 75 (6396) 9 aprel 2016



## Ona görə otel açdı ki... otaqlara gizli kamera yerləşdirsin

Amerikanın Kolorado ştatında otel sahibi Gerald Foosun son 29 ildə ora gələn müştərilərin intim həyatını izlədiyi ortaya çıxıb. İngiltərənin "Daily Mail" qəzetinin xəbərinə görə, o, 1960-cı illərdə açdığı oteldə daha sonra həyat yoldaşının da köməyi ilə otaqlara gizli kamera yerləşdirib. Bunun ortaya çıxmasında isə özü təşəbbüskar olub. Belə ki, ölkədə insanların özəl həyatı ilə bağlı araşdırma hazırlayan jurnalist Gey Talese ilə əlaqə saxlayan otel sahibi ona "son 15 ildə cütlüklər arasında hazırlıqsız yaşanan intim münasibətə şahid oldum, müşahidə etdim və araşdırma hazırladım" deyib. Jurnalist isə iyul ayında yayımlanacaq kitabında bu detallara da yer verib. Hüquq-mühafizə orqanları isə bununla bağlı hər hansı hüquqi addım ata bilməyəcəklərini deyiblər. Belə ki, baş vermiş hadisə tarix etibarilə öz aktuallığını və cinayət dərəcəsini itirib. Otel sahibi isə etiraf edib ki, otel açmasının əsas səbəbi elə bu cür münasibətlərə kənardan, heç bir kompleks keçirmədən baxa bilməsidir. Onun sözlərinə görə, porno filmlər eyni effekti vermir. Çünki oteldə baş verən münasibətlərdə hər şey təbii və planlaşdırılmamışdır.

# Səhərlər bir dilim tort... insanı arıqladır



Səhər yeməyində bir dilim tort yemək arıqlamağa kömək edir. Bunu türkiyəli alimlər sübut edir. Onların bildirdiyinə görə, 90 kilo ağırlığında olan bir adam bu üsulu tətbiq edərək, 8 ayda 20 kilo arıqlaya bilər. İsraildə Hebrev və Ariel universitetləri artıq çəkili 193 nəfər üzərində aparılan araşdırma zamanı müəyyən olub ki, səhərlər bir dilim tort yeyənlər digərlərinə nisbətən daha tez arıqlayır. İsrailli alimlər isə bildirib ki, insanların həzm sistemi səhərlər daha aktiv fəaliyyət göstərir. Onların gəldiyi nəticəyə görə, səhər yeməyində yeyilən tort gün ərzində keks və ya tort kimi qidalara olan tələbatı azaldır.

# Kirpili kafedə bir saat oturmaq 12 dollardır

Yaponiyanın paytaxtı Tokio şəhərində müştərilərin açılan kafe öz qəribəliyi ilə diqqət çəkir. Belə ki, bura gələn müştərilər kafedəki kirpilərlə oynaya bilirlər. Bu barədə lenta.ru saytı "The Guardian"a istinadən xəbər verib. Kafedə bir saat oturmaq üçün həftə içi 9, həftə sonları isə 12 dollar ödəmək lazımdır. İçəridə 20 növə yaxın kirpi saxlanır. Heyvanlar şüşə qutularda saxlanır və onların hər birini ələ götürmək mümkündür. Kafenin əməkdaşı Mizuki Murata deyir ki, daha öncə dovşanlı kafedə çalışsa da, kirpilərlə vaxt keçirmək onun ən böyük arzusu olub. "Biz bu layihə ilə insanlara sübut etmək istədik ki, iynələrinə baxmayaraq kirpilər çox şirin heyvanlardır. Ümid edirəm ki, biz qonaqlarımızı onlara toxunmaq qorxusundan azad edə biləcəyik".

2015-ci ilin noyabrında isə Britaniyanın Bristol şəhərində pişiklər üçün pub açılmışdı. Kafenin 44 yaşlı sakini Lyuk Deniels demişdi ki, elə 15-ə yaxın pişik bu məkanın divarları arxasında doğulub.





## Evinə o qədər zibil yığdı ki, altında öldü...

İspaniyanın Viqo şəhərində yerli polis lazımsız əşyalar yığmaq xəstəliyindən əziyyət çəkən 51 yaşlı kişini evində ölü tapıb. Kişi özünün yığdığı zir-zibilin altında boğularaq ölüb. Kişinin itməsi barədə polisə ondan nigaran olan tanışı xəbər verib. Belə ki, kişi onunla Facebook və WhatsAppda ünsiyyəti son 6 gündə kəsiyi üçün polisə bu barədə xəbər vermək zərurəti hiss edib. Hadisə yerinə gələn polislər isə evdəki zir-zibilin çoxluğundan içəri keçə bilməyiblər. Polislərdən biri isə jurnalistlərə deyib ki, bu günə qədər belə anormal mənzərə ilə qarşılaşmayıb. Tənha yaşayan kişinin meyiti isə qapıdan bir metr aralıda, yığdığı zibillərin altında aşkarlanıb. Kişini o zibilin altından çıxarmaq üçün yanğınsöndürənlərin köməyindən istifadə etmək lazım gəlib. Patoloji yığımcıllıq xəstəliyi isə dünyada geniş yayılıb və onun digər bir adı da Dioqena sindromudur. Bu, psixoloji gərginlik, özünə qarşı diqqətsizlik, apatiya, sosial izolyasiya ilə müşayiət olunur.




QOÇ - Proseslərin ləng inkişafını nəzərə alıb istirahətə daha çox üstünlük verin. Əgər qonaqlığa dəvət alsanız, məmnuniyyətlə qəbul edin. Ümumi zəifliyinizə görə, qidanıza da yaxşıca fikir verməlisiniz.

BUĞA - Şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şansınız olacaq. Odur ki, bu istiqamətdə bütün gücünüzü səfərbər edin. Nahardan sonra ağır fiziki işlərdən, nabələd adamlarla danışıqdan yayının.

ƏKİZLƏR - Təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, uzaqdan sevindirici xəbər alasınız. Hər halda, ovqatınız xoş olacaq. Nəqliyyat vasitələrində isə maksimum ehtiyatlı olmalısınız.

XƏRÇƏNG - İkitərəfli əməkdaşlıq üçün düşərli vaxtdır. Buna baxmayaraq, müqavilə bağladığınız adamlarla ehtiyatlı davranın. Qlobal məsələlərin həllində təşəbbüskarlığı da əldən verməyin.

ŞİR - Ulduzların düzümü sağlıq durumunuzda problem olduğunu göstərməkdədir. Bu səbəbdən də qida və yuxu rejiminizə, həmçinin daxili orqanlarınıza ciddi fikir verməlisiniz.

QIZ - Bütün göstəricilər səfərlərə çıxmaqdan məmnunluq duyacağınızı xəbər verir. Elə isə vaxtı fövtə verməyin. Bu gün fəaliyyətlə bağlı işlər üçün o qədər də uğurlu vaxt deyil.

TƏRƏZİ - Kifayət qədər uğurlu gündür. Qarşıya qoyduğunuz planların böyük əksəriyyətini reallaşdıra biləcəksiniz. Maraqlı görüş və tanışlıqlar da mümkündür. Uzaq yola çıxmayın.

ƏQRƏB - Əgər sağlıq durumunuzu, xüsusən də daxili orqanlarınızı nəzarətdə saxlaya bilsəniz, gün ərzində digər xoşagəlməzliklə rastlaşmayacaqsınız. Maddi mövqeyinizi möhkəmləndirmək üçün hərəkətə keçin.

OXATAN - Yaxşı olar ki, bu təqvimdə bütün işlərinizi təxirə salasınız. Çünki fiziki yorğunluğunuzun ifratçılığı aktivliyinizə mane olacaq. Vaxt tapıb yaxın dostlarınıza baş çəkin, təbiət qoynuna çıxın.

OĞLAQ - Saat 14-ə qədər neytarllıq nümayiş etdirməyiniz məsləhətdir. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin. Sonrakı müddətdə isə perspektivli sövdələşmələr gözlənilir.

SUTÖKƏN - İntiqam hissi, gərgin situasiyalara şərh vermək, münasibəti korlanmış iki nəfər arasında vasitəçilik etmək sizə zərər yetirə bilər. Buna görə də yalnız özünüzə aid işlərlə məşğul olun.

BALIQLAR - Bu gün ümumi əhvalınızda xoş məqamlar çox olacaq. Ələlxüsus da saat 15-dən sonra bütün cəhdləriniz baş tutacaq. Əsas vaxtınızı isə ailə-sevgi münasibətlərinə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qadınlar ərlərindən bunları gizlədir...



Psixoloqlar müəyyənləşdirib ki, qadınların öz ərlərindən, sevgililərindən gizlətdikləri bir çox şeylər var. Bunlardan biri onların mağazadan, bazardan, butikdən və.s aldığı hər şeyin miqdarını olduğundan az deməsidir. Onlar bunu ərlərinin pula görə deyinməməsi üçün edirlər. Bundan başqa, qadınlar çox vaxt ərlərinin onları qısqanması üçün kiçik yalanlar deyirlər. Zərif cinsin nümayəndələri ərlərinin boş-boş işlərlə məşğul olduğunun fərqində olsalar belə, bunu onlara demir, ondan narazı olduqlarını dilə gətirmirlər. Qadınların ərlərindən gizlətdiyi daha bir məqam isə yaraşıqlı aktyorlara olan heyranlıqlarıdır. Onlar hesab edirlər ki, bunu desələr, ərlərinin qəlbinə dəymiş olacaqlar

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750